# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 79 (3403) Cümə axşamı / 30 sentyabr - 6 oktyabr 2021-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## "Qazilərimiz narazıdırlar"



**Flora Qasımova,**
Şəhid Milli Qəhrəman Şirin Mirzəyevin xanımı, Milli Məclisin sabiq üzvü

***Şəhid Milli Qəhrəman Şirin Mirzəyevin xanımı, Milli Məclisin sabiq üzvü Flora xanım Qasımova bu günlərdə Türkiyənin Bursa vilayətindəki möhtəşəm parklardan birinin şəhid ömür-gün yoldaşının adına verilməsi mərasimində iştirak edib. Hafta.az üçün geniş müsahibəsində sabiq deputat qardaş ölkəyə 44 günlük savaşdakı zəfərimizdən sonrakı ilk işgüzar səfərinin təəssüratlarından, şəhid Milli Qəhrəmanımızın adına parkın açılışı zamanı keçirdiyi hisslərdən, Bursa xəstəxanalarından birində müalicə alan qazilərimizlə görüşündən danışıb.***

*Şirinin adının Türkiyədə də əbədiləşdirilməsi mənə böyük ruh və mənəvi güc verdi*

Səh. 3

# Dövlətdən oğurlanan milyonlar

***Azərbaycanda məmurların topladığı var-dövlət adətən onlar hansısa cinayət əməlinə görə həbs olunduqdan sonra ortaya çıxır. Təqsirləndirilən şəxslərin varidatı isə hər kəsi heyrətə gətirəcək qədər çoxdur. Həbs olunan məmurların gizli kamera ilə çəkilmiş "fəaliyyətlərindən" aydın olur ki, onların bir həftə ərzində "qazancları" təxminən 200-300 min manat arası olub. Təsadüfi deyil ki, bu məmurların nəinki ölkə daxilində, hətta xaricdə də milyonlarla dollarlıq əmlak və biznesi üzə çıxır. Məsələn, hazırda həbsdə olan "Azərxalça" ASC-nin İdarə heyətinin sabiq sədri Vidadi Muradovun əmlakına həbs qoyulub. Onun üzərinə həbs qoyulan əmlakının dəyəri isə nə az, nə çox 30 milyon 587 min manat təşkil edir. Qeyd edək ki, "Azərxalça"nın sabiq rəhbəri dövlətin 22 milyon manata yaxın pulunu mənimsəyib. Son illər həbs edilən icra başçılarının villalarına, müxtəlif ünvanlarda yerləşən mənzillərinə keçirilən baxış zamanı ortaya çıxan milyonlarla dollar vəsaitlər göstərir ki, onlar da dövlətdən az oğurlamayıblar. Və bu oğurluğun sayəsində hər kəsi heyrətə gətirəcək qədər "qazanc" əldə ediblər.***



Təbii ki, həbs olunan məmurların xalq və dövlətdən soyub taladıqları sərvətin bir qismi sonradan müsadirə olunaraq dövlətə qaytarılır. Məlumatlara görə, təkcə İmişlinin sabiq icra başçısı Vilyam Hacıyevin evindən 5 milyon dollardan yuxarı vəsait aşkarlanıb. Bu onu göstərir ki, korrupsiya faktlarına görə həbsdə olan orta səviyyəli bir məmurdan dövlət nəfinə on milyonlarla manat vəsaiti geri almaq mümkündür.

2019-cu ildə isə məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş maddi ziyanın 74,7 faizinin ödənilməsi təmin edilib, yəni 83,2 milyon manatdan 62,1 milyon manat vəsait geri qaytarılıb. Bu vəsaitin 21,8 milyon manatı ibtidai araşdırma mərhələsində ödənilib. Bundan əlavə, 40,3 milyon manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulub.

Maraqlıdır, bəs bu vəsaitlər, müsadirə olunan əmlaklar dövlət nəfinə necə alınır? Həbsdə olan sabiq məmurların mal-mülklərinin, var-dövlətlərinin sonrakı taleyi necə olur? Həmin əmlaklar hansı formada satışa çıxarılır? Bununla bağlı hərraclar necə təşkil olunur? Bu hərraclarda istənilən vətəndaş iştirak edib, satışa çıxarılan əmlakla bağlı təklif verə bilərmi? Sözügedən əmlaklar kimlər tərəfindən qiymətləndirilir? Müsadirə olunan əmlakların satışından əldə olunan vəsaitlərin büdcəyə köçürülməsi hansı mexanizm əsasında baş verir? Bu və digər suallar ətrafında apardığımız araşdırmanı təqdim edirik.

■ **Mövzu ilə bağlı hafta.az-a danışan Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Samir İsayev bildirib ki, bu məsələdə iki xüsusatı nəzərə almaq lazımdır:** "Birincisi ondan ibarətdir ki, əgər talama (mənimsəmə və ya israf etmə), qulluq mövqeyindən sui-istifadə ilə bağlı dövlətə ziyan vurma cinayətləri törədilmişdirsə, o zaman vurulan zərərin dövlətə qaytarılması ilə əlaqədar şəxsin əmlakı üzərinə həbs qoyula bilər".

### Əmlak üç dəfə satışa çıxarılır, əgər satılmırsa...

**Onun sözlərinə görə, əmlak məhkəmənin yekun qərarı əsasında hərracda satılma yolu ilə həyata keçirilir:** "Məhkəmənin hökmündə vurulmuş maddi zərərin qaytarılması ilə əlaqədar hissə (əmlak müsadirəsi növündə cəza və ya mülki iddianın təmin olunması) vardırsa, yəni zərər vuran vəzifəli şəxsdən

**Yeri gəlmişkən...**

**Ötən il korrupsiya faktları üzrə180 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib. Korrupsiya ilə bağlı cinayət işləri üzrə 49 milyon 153 min manat məbləğində ziyanın ödənilməsi təmin edilib. 2020-ci ildə bu işlər üzrə 13 milyon 283 min manat dəyərində əmlak üzərinə həbs qoyulub.**

əmlakın alınması ilə bağlı hissə mövcuddursa, bu məsələnin icrasını Ədliyyə Nazirliyinin İcra və Probasiya xidməti hərracın keçirilməsi vasitəsilə təmin edirlər. Bununla bağlı oturuşmuş təcrübə vardır. Ölkədə hərrac mərkəzləri mövcuddur və hərracların keçirilməsi mexanizmi vardır. Amma mənim təcrübəmdə belə bir hal baş verməyib, habelə maraqlanmamışam. Cinayət işləri üzrə vəkil olaraq iştirakım məhkəmədə təqsirləndirilən şəxsin hüquqlarını müdafiəsi ilə bağlıdır və hökmün icrası mərhələsində bir qayda olaraq iştirak etmirəm, o cümlədən, həmin işdə əmlak müsadirəsi və ya maddi zərərin ödənilməsi məqsədilə əmlakın alğı-satqısı nəzərdə tutulub zərərin ödənilməsi təmin olunacaqsa, bu işlə məşğul olmuram. Bir qayda olaraq, vəkillərin əksəriyyəti bu sahə ilə məşğul olmurlar, səbəbi isə sadədir, bunun üçün vəkil ilə müqavilə bağlanmalıdır, cinayətlər işləri üzrə hüquqi yardım göstərilən şəxslər bu mərhələ üçün vəkillə müqavilə bağlamırlar. Çünki bu sahədə artıq oturuşmuş mexanizm var və proses də öz axarında gedir.

Yəni, icra orqanı hərracı təyin edir, hərrac keçirilir. Prosedur belədir ki, 3 dəfə hərrac keçirilir. Hərrac keçirildikdən sonra heç kim əmlakı almırsa, əmlak sahibinə qalır. Tutaq ki, əmlak 3 dəfə satışa çıxarılıb satılmırsa, hər dəfə də qiymət aşağı salınır və mülki işlərdə əmlak tələbkar tərəfə verilir. Dövlət əmlakına qarşı törədilmiş cinayətlər üzrə tələbkar tərəf dövlətdir. Qanunvericiliyin tələbinə görə, əgər əmlak hərracda satılmırsa, tələbkara verilməlidir. Dövlət həmin əmlakın taleyini necə həll edəcək, onun işidir. Məsələn, əmlak satılmasa, dövlət həmin mənzili yerli icra hakimiyyətlərinin mənzil balansına sala bilər və həmin əmlakı mənzil növbəsində olan vətəndaşlara verə bilər. Eyni qaydada, əmlak əgər nəqliyyat vasitəsidirsə, o da dövlətin balansına keçir. Korrupsiya ilə bağlı cinayət işlərində isə tələbkar dövlət olduğu üçün həmin əmlakların taleyi də dövlətdən asılıdır. Dövlət bir qayda olaraq əmlakı götürməyə meyilli deyil, əmlakı hərracda satdırır pulu büdcəyə mədaxil edir. Amma bu baş vermədikdə və əmlak dövlət orqanları tərəfindən idarə oluna biləcək bir əmlak olmadıqda, həmin əmlak məhv edilir".

### Gəlirlər bəyan edilmir, məmurun 20 evi ola bilər

**Vəkil həmçinin vurğulayıb ki, korrupsiya cinayətlərində əmlak müsadirəsi məhkəmə tərəfindən əlavə cəza kimi tətbiq oluna bilər:** "Tutaq ki, məhkəmə hesab edərsə ki, işdə rüşvət predmeti var, o zaman təqsirləndirilən şəxs təqsirləndirilməklə yanaşı, məhkəmə əlavə cəza kimi əmlak müsadirəsi tətbiq edə bilər. Yəni, rüşvət cinayətlərində əvvəllər əmlak müsadirəsi birbaşa nəzərdə tutulmuşdu, indi isə o hal yoxdur. Bu hal artıq mülki iddia qaydasında tətbiq olunan bir haldır. Məsələn, şəxsin işləyən zaman işlədiyi müəssisəyə vurduğu maddi və mənəvi zərərdən söhbət gedə bilər. Tutaq ki, təqsirləndirilən şəxs icra başçısıdır, öz əməllərində icra hakimiyyəti orqanının şərəfinə, ləyaqətinə, nüfuzuna mənəvi zərər vurub.Yəni, icra hakimiyyəti qurumunu nüfuzdan salan hərəkətlər edib. Bu halda mənəvi zərər dövlət orqanı tərəfindən tələb olunursa, məhkəmə onu təmin edə bilər. İkinci bir tərəfdən, şəxs konkret vəsaiti mənimsəyibsə, o zaman əmlakı əlindən alına bilər. Digər bir məsələyə də diqqət yetirmək lazımdır. Azərbaycanda məmurların gəlirlərinin bəyan edilməsi mexanizmi yoxdur. Əgər bu olsaydı, qanunsuz gəlir hissəsini mülki iddia qaydasında məmurun əlindən almaq olardı. Bir halda ki, gəlirlər bəyan edilmir, məmurun 20 dənə də evi ola bilər. Bunu heç kim sorğulaya bilməz ".

Onun sözlərinə görə, dövlət qurumu həbs olunan məmurlardan dövlət mənafeyinə vurulmuş zərəri həm də pul ifadəsində tələb etməlidir: "Məsələn, bir məmur qeyri-qanuni yolla hansısa əmlak əldə edibsə, bunun təkcə cəmiyyət tərəfindən pislənməsi hesab edirəm ki, kifayət deyil. Həmin şəxsdən eyni zamanda, mənəvi zərər tələb olunmalıdır. Təəssüf ki, bu gün Azərbaycanın məhkəmə praktikasında bununla bağlı təcrübə yoxdur. Hesab edirəm ki, dövlət qurumu həbs olunan məmurlardan dövlət mənafeyinə vurulmuş zərərin pul ifadəsində pulunu almalıdır".

Səh. 2

MÜSAHİB




**Sərdar Məsud Xan,**
Azad Cammu və Kəşmir Respublikasının Prezidenti

■ Referendum xalqımızın istəklərini müəyyən etmək üçün ən demokratik yoldur...

■ Pakistanda ən yüksək savadlılıq dərəcəsi məhz bizim Azad Cammu və Kəşmir ərazisindədir...

■ 1947-ci il oktyabrın 24-də əsası qoyulmuş dövlətimiz Hindistanın işğalı altındakı Kəşmirin azadlığı üçün mübarizə aparır...

Səh. 5

GÜNÜN FOTOSU...



**BDU-nun qarşısında izdiham...**

GÜNÜN SİTATI

*"Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi aktiv fəaliyyət göstərir"*



**Vladimir Putin,**
Rusiya Prezidenti

KARİKATURA




**Bərəkətli yağış...**

## Cənab Prezident bunu bacardı

**Abutalıb Səmədov,**
Azərbaycan adına Alyans Partiyasının sədri

Biz işğal olunmuş yeddi rayonumuzu geri almaq istəyirik. Dünya bu dərəcədə çaşmışdı və ya özünü çaşqınlığa vurmuşdu.

Səh. 6

STATİSTİKA



■ **Avqustda Azərbaycanda qeydə alınan nikahların sayı açıqlanıb.**

Ədliyyə Nazirliyindən bildirilib ki, ötən ay qeydiyyat orqanlarında 5774 nikah dövlət qeydiyyatına alınıb.

Avqust ayında həmçinin qeydiyyat orqanlarında 209 adın, ata adının və soyadın dəyişdirilməsi dövlət qeydiyyatına alınıb.



Səh. 4

## "Ağıllı kənd"in sakinləri bu il köçürülə bilərlər

# "Ağıllı kənd"in sakinləri bu il köçürülə bilərlər

## Layihə

***Bu gün Azərbaycan hökuməti "Böyük Qayıdış"a ciddi şəkildə hazırlıq görür. İşğaldan azad olunmuş ərazilərə qayıdacaq keçmiş məcburi köçkünlər isə dədə-baba torpaqlarına geri dönüşü səbirsizliklə və həyəcanla gözləyirlər. Ötən həftə Prezident İlham Əliyev Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenkoya müsahibəsində müjdəli bir xəbər verdi. Ölkə başçısı bildirdi ki, Zəngilana ilk köçkünlər gələn il, bəlkə də bu ilin sonuna qədər köçəcəklər. Prezidentin sözlərinə görə, digər rayonların hərəsində bir pilot layihə həyata keçiriləcək ki, insanları dogma yurdlarına qaytarmaq mümkün olsun:***



"Zəngilan rayonundakı "smart village" - "ağıllı kənd" kimi nöqtəvi layihələr var. İndi digər rayonların hərəsində bir pilot layihə həyata keçirəcəyik ki, insanları qaytara bilək. Mən vaxt müəyyən etmək istəmirəm, lakin düşünürəm ki, - düşünürəm yox, lap dəqiq deyirəm, - Zəngilana ilk köçkünlər gələn il, bəlkə də bu ilin sonuna qədər köçəcəklər.

Başqa kəndlərə də bir il müddətində köçmək olar. İri şəhərlərin bərpası isə yəqin ki, vaxt tələb edəcək, lakin biz bunu mərhələli şəkildə planlaşdıracağıq. Tikinti, məskunlaşma mərhələli şəkildə aparılacaq. Bu da çox mürəkkəb işdir, təkcə tikinti baxımından deyil, logistika, insanların iş ilə, dolanışıq vasitələri, torpaq sahələri, texnika ilə təmin edilməsi - bunlar, çox böyük həcmli işlərdir, onu öz vəsaitimiz hesabına yerinə yetiririk, biz hər hansı kreditlər üçün müraciət etməmişik, əgər kimsə kömək etmək istəsə, əlbəttə, şad olarıq, istəməsələr, bu işləri özümüz görməliyik".

Prezidentin açıqlamasından belə aydın olur ki, "Böyük Qayıdış"ın təməli "ağıllı kənd"in sakinləri ilə qoyulacaq. Qeyd edək ki, bu ilin aprelin 26-da Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "ağıllı kənd" layihəsinin təməlini qoyub. Bununla da işğaldan azad olunmuş ərazilərdə müasir çağırışlara cavab verən, beynəlxalq standartlara əsaslanan yeni quruculuq modelinin tətbiqinə başlanılıb. Qarabağda ilk dəfə həyata keçirilən layihənin icrası 5 komponent üzrə aparılır. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Hazırda Zəngilanda "ağıllı kənd" layihəsinin icrası davam etdirilməkdədir. Layihəyə əsasən kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Həmçinin bütün yaşayış evlərinin, sosial obyektlərin, inzibati və ictimai iaşə binalarının, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesinin alternativ enerji mənbələri ilə təmin edilməsi nəzərdə tutulub. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edirlər.

"Ağıllı şəhər" və "ağıllı kənd" texnologiyaları vətəndaşların sağlamlığını və rifahını yüksəltməklə bərabər iqtisadi inkişaf üçün yeni yollar da təqdim edir. Bərpa olunan ərazilərdə belə texnologiyaların tətbiqi regionun inkişafını sürətləndirə və həmin regionu investorlar üçün maraqlı edə bilər. "Ağıllı şəhər" texnologiyaları böyük potensiala malik olan Qarabağ regionunda turizm sektorunu inkişaf etdirmək üçün əlavə imkanlara da yol açacaq.

> *"Bu kimi layihələr Azərbaycanın qüdrətli, yüksək iqtisadi imkanlara malik olduğunu bir daha təsdiqləyir*



**Əli Əlirzayev,**
iqtisad elmləri doktoru,
professor

"Ağıllı şəhər" və "Ağıllı kənd" layihələri Qarabağın şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılmasında, informasiya texnologiyalarının tətbiqi, həmçinin mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsində dayanıqlı inkişafın əsas prioritetlərindəndir. İşğaldan azad olunmuş şəhər və kəndlərdə bu layihələrin tətbiqi regionun yenidən qurulmasını və inkişafını sürətləndirəcək.

■ **İqtisad elmləri doktoru, professor Əli Əlirzayev də hesab edir ki, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri azad olunmuş ərazilərdə göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin təmin olunması, eləcə də köçkünlərin öz yurdlarına daha tez bir zamanda dönməsində mühüm rol oynayacaq.** Onun sözlərinə görə, bu layihənin ilk olaraq Zəngilanda həyata keçirilməsi də təsadüfü deyil: "Düşünürəm ki, layihənin həyata keçirilməsi üçün nəzərdə tutulan ərazi də təsadüfü seçilməyib. Biz bilirik ki, Zəngilan geosiyasi baxımından vacib ərazidə yerləşir, bir tərəfdən İranla, bir tərəfdən Ermənistanla sərhəddir və tranzit rolunu oynayır. Bu layihənin həyata keçirilməsi dünyaya da səs sala bilər. Azərbaycan bu layihəni həyata keçirməklə həm də dünyada yenilik edir. Düzdür, "ağıllı kənd" layihəsi çox ölkələrdə mövcuddur. Hər ölkənin də öz təcrübəsi var. Azərbaycanın həyata keçirdiyi layihənin əsas özəlliyi ondan ibarətdir ki, bu işdə 4 qabaqcıl ölkənin təcrübəsindən istifadə olunur. Yəni layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri iştirak edir.

200 evin tikintisi nəzərdə tutulan bir kənddə ən qabaqcıl təcrübələrin birləşməsi özü bir yenilikdir. Layihəyə əsasən, yeni kənddə insanların yaşaması, əmək fəaliyyəti ilə məşğul olması və asudə vaxtın səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Ermənistanla sərhədə yaxın bir ərazidə ən müasir səviyyədə quruculuq işlərinin aparılması həm də düşmən ölkəyə göz dağıdır, psixoloji təsirdir. Bu kimi layihələr Azərbaycanın qüdrətli, yüksək iqtisadi imkanlara malik olduğunu bir daha təsdiqləyir. Yaxın illərdə nəinki Ermənistan, bütün dünya işğaldan azad olunmuş ərazilərimizi necə cənnətə döndərdiyimizin şahidi olacaq".

Ekspert vurğulayıb ki, Azərbaycan hökuməti Qarabağda qayıdış üçün bütün imkanlarını səfərbər edib: "Məəələn, bu gün işğaldan azad edilmiş ərazilərdə eyni anda 3 hava limanının inşası aparılır. Onlardan biri, Füzuli hava limana artıq istifadəyə verilib. Hava limanları, nəqliyyat yollar rahat gediş-gəliş deməkdir. Turizmin inkişafı, keçmiş

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

İşğaldan azad olunmuş ərazilərə
"Böyük Qayıdış"

məcburi köçkünlərin iş yerləri ilə təmin olunması deməkdir.Təkcə turizm infrastrukturunun yaranması ilə gələcəkdə Qarabağda nə qədər iş yerləri açılacaq. Digər tərəfdən, xarici ölkələrlə əlaqələrimizin inkişafına da yeni təkanlar verəcək. Hətta sərnişindaşımanın özü də mühüm əhəmiyyət kəsb edir. Qarabağda və Şərqi Zəngəzurda hava limanlarının istifadəyə verilməsi Bakının yükünü də azaldacaq. Burada mühüm nəqliyyat əlaqələri formalaşdırılacaq. Füzulidən, Zəngilandan, Laçından Türkiyəyə, Rusiyaya birbaşa reyslər açılarsa, bu əlaqələrin daha da inkişafı deməkdir. Ona görə də əhalinin daşınması, yükdaşıma, xariclə iqtisadi əlaqələrin qurulması və turizmin inkişafı baxımından hava limanlarının istifadəyə verilməsi böyük əhəmiyyətə malik olacaq".

Təbii ki, işğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi prosesi başa çatdıqdan sonra bu istiqamətdə görüləcək işlər daha geniş vüsət alacaq. Eyni zamanda, yolların, infrastrukturun bərpası daha da sürətlənəcək. Bundan sonra yaşayış məntəqələri arasında gediş-gəliş və vacib təminatların çatdırılması asanlaşacaq. İçməli su, sanitariya və irriqasiya sistemlərinin yenidən qurulması isə insanların həyat səviyyəsinin yaxşılaşmasına imkan yaradacaq. Yeri gəlmişkən, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən 2020-ci ilin 10 noyabrından indiyədək 5 430 ha ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Bu barədə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan (PHS) təmizləmə üzrə İşçi Qrupun iclasında bildirilib. Qeyd olunub ki, bu müddət ərzində ANAMA tərəfindən 24 925 ədəd mina və PHS aşkar edilib. Bu il ərzində isə 4 854 ha ərazi təmizlənib, 14 884 ədəd mina və PHS aşkar edilərək zərərsizləşdirilib. Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən, bu ilin sentyabr ayının 1-23-də MN mühəndis bölmələri tərəfindən Ağdam, Cəbrayıl, Füzuli, Xocavənd və Qubadlı rayonları üzrə 1119 ha ərazi təmizlənib, 91 ədəd PHS aşkar edilib. Bildirilib ki, Cəbrayıl, Zəngilan və Füzuli rayonları üzrə çox illik əkin sahələrinin təmizlənməsi başa çatıb, Qubadlı rayonunda isə 71 ha ərazinin təmizlənməsi bitmək üzrədir. Bu sahələrdən 1628.626 ha ərazi təmizlənib, 427 ha ərazi isə təmizlənməli ərazidir. Ümumilikdə 12.014 ha ərazi mina və partlayıcı sursatlardan təmizlənib. Həmçinin qeyd olunub ki, Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən, ümumilikdə 286 ha ərazi təmizlənib, 2 976 ədəd mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Rusiya ilə ikitərəfli əlaqələrdə hər hansı problemimiz yoxdur

## Aktual

**Rusiya-Azərbaycan münasibətlərində rus sülhməramlılarının təsiri ilə yaranan gərginliyin müşahidə olunması araşdırılmaqla yanaşı, problemin kökündə dayanan bir sıra anlaşılmazlıqlara aydınlıq gətirilir. Bu məsələ Türkiyənin Anadolu agentliyinə müsahibə verən ölkə başçısının açıq mətnlə söylədiyi fikirlərində də öz əksini tapdı.**



Prezident Rusiya-Azərbaycan münasibətlərinin kifayət qədər yüksək olduğunu vurğulayaraq, yaranan narahatlıq və narazılıqlarla bağlı bəzi məqamları önə çəkdi. Azərbaycan-Rusiya münasibətlərində ortaya çıxan gərginliyin əsasında da erməni məkiri, erməni yalanının dayandığı ortaya qoyuldu.

■ **Politoloq Məhəmməd Əsədullazadə hafta.az-a bildirib ki, bu gün Rusiya-Azərbaycan əlaqələrində rus sülhməramlılarının fəaliyyəti və Ermənistan-Rusiya əlaqələri ilə bağlı narahatlıqlar var.** Politoloq hesab edir ki, Rusiya-Azərbaycan qonşu dövlətlərdir və prinsip etibarilə iki dövlət arasında yalnız bu məsələlərlə bağlı fikir ayrılıqları olub. Onun sözlərinə görə, Azərbaycan tərəfinin konkret olaraq Rusiyadan istədiyi budur ki, 10 Noyabr bəyanatına əməl olunsun. "Rusiya ilə bizim nə Xəzər dənizi məsələlərdə, nə dövlət, nə də ikitərəfli əlaqələrdə hər hansı problemimiz yoxdur. Rusiya tərəfi özünün geosiyasi mövqeyindən irəli gələrək, Ermənistanla strateji müttəfiqliyi qoruyur, müharibədə və sonrakı dövrdə Ermənistanın silahlanmasını həyata keçirir. Eləcə də sülhməramlıların fəaliyyəti ilə Azərbaycana qarşı təxribatlar edir. Təbii ki, bu da Azərbaycanı qane edə bilməz. Cənab Prezidentin Qarabağda yerləşən rus hərbçiləri ilə bağlı məsələdə dəfələrlə narazılığı, Rusiyaya mesajları olub.

Rusiya bunu təkzib etsə də, fakt faktlığında qalır. Sadəcə olaraq Rusiya Azərbaycandan sülhməramlıların mandatını imza ilə təsdiqləməsini istəyir. Azərbaycan bunu yalnız 10 Noyabr atəşkəs Bəyanatının tələbləri yerinə yetiriləndən sonra edəcəyini deyir. Bəyanatın 4-7-ci bəndləri erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması, məcburən köçən azərbaycanlı əhalinin öz yerlərinə köçürülməsini ehtiva edir ki, Rusiya buna əməl etmir". M.Əsədullazadə son vaxtlar Rusiya və Ermənistan mətbuatında Ermənistanın silahlandırılması ilə bağlı dezinformasiyaların yayıldığını və bir çox hallarda Azərbaycanda bəzi dairələrin həmin yanlış məlumatların qurbanına çevrildiyini deyib. Onun sözlərinə görə, Ermənistan tərəfi konkret olaraq Rusiya-Azərbaycan əlaqələrinə zərbə vurmaq üçün belə yalan məlumatlar yayıblar. Politoloq Prezident İlham Əliyevin son olaraq Anadolu agentliyində verdiyi müsahibədə bu məqama toxunduğunu deyib.

M.Əsədullazadə bu istiqamətdə Rusiya və Ermənistan müdafiə nazirlərinin verdiyi bəyanata istinad edərək müəyyən qaranlıq məqamlara da diqqət çəkib. Onun sözlərinə görə, Rusiya Ermənistanı silahlandırır, amma müasir silahlar vermir. Bahalı silahları almaq üçün Ermənistanın Rusiyaya verəcək pulu yoxdur. Politoloq bu fikirdədir ki, Rusiyanın Ermənistanı silahlandırmaqla yenidən müharibəyə təhrik etməsi də mümkün olmayacaq, çünki 30 il ərzində bunu etdi, heç nə qazanmadı.



"Ermənistanın təxribatları son nəticədə Rusiya ilə Azərbaycan arasında mövcud münasibətlərə təsir edə bilməz. Nəticədə Azərbaycan həmin "postları" darmadağın edəcək və Rusiya özü pis vəziyyətdə qalacaq. Rusiya həmişə taktiki düşünür, strateji siyasət həyata keçirir. Bu da nəticədə Rusiyanın öz əleyhinə formalaşır. Necə ki, II Qarabağ müharibəsi Rusiyanın əleyhinə formalaşdı, burda da 4 cü bənd yerinə yetirilmirsə, Ermənistan silahlı birləşmələri ilə Azərbaycanı sabotaj edirsə, öz cavabını alacaq. Hesab edirəm ki, baş verən proseslər Azərbaycanın maraqalarına uyğundur və Rusiyanın əleyhinə çevrilir. Bu ona görə baş verir ki, Rusiyada hakimiyyətdə olanlar qeyri-ruslardır. Rus milləti gözəl millətdir, gözəl xalqdır. Təəssüf ki, onların siyasətinin formalaşmasında erməni və alman lobbisinin təsiri var". Politoloq hesab edir ki, Rusiya-Azərbaycan münasibətlərinin bundansonrakı inkişafı olduğu kimi davam edəcək. "Azərbaycan tərəfi ermənilərin Rusiyadan silah alışı ilə bağlı müəyyən mesajlar verdi. Münasibətlərimizin bu templə davam etməsi Azərbaycanın maraqlarına uyğundur".

✍ ***Tahirə Qafarlı***

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycanda İnterpolun Milli Mərkəzi Bürosunun sabiq rəisi vəfat edib. Polis general-mayoru Mehman Təhməzov uzun müddətdir ağır xəstəlikdən əziyyət çəkirmiş. Qeyd edək ki, Mehman Təhməzov 2012-ci ildə Azərbaycan İnterpolun Milli Mərkəzi Bürosunun rəisi vəzifəsinə təyin edilib. 2019-cu ildə o, xidmətdə olmanın son həddi ilə əlaqədar təqaüdə göndərilib.

■ İmişli rayonunun sabiq icra başçısı Vilyam Hacıyev koronavirusa yoluxub. Sabiq icra başçısının COVID-19 xəstəliyi ilə bağlı verdiyi analizin cavabı pozitiv çıxıb. V.Hacıyev Ədliyyə Nazirliyinin ixtisaslaşmış Müalicə müəssisəsinə köçürülüb. Onun vəziyyətinin ağır olduğu bildirilir.

■ Sentyabrın 29-da Türkiyə lirəsinin Azərbaycan manatına qarşı rəsmi məzənnəsi 0,16% azalaraq 0,1914 manat təşkil edib. Bu, yeni tarixi minimumdur.

Dövlət Məşğulluq Agentliyi

■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramı çərçivəsində bu il artıq 6800-dək şəxsə mal və materiallar formasında aktivlər verilib. Verilmiş aktivlər hesabına onlar kiçik müəssisə və təsərrüfatlarını yaradıblar. Həmin şəxslərdən 3317-si şəhid ailəsi üzvləri və qazilərdir.

■ Anadangəlmə ürək qüsurları üçün ən ciddi risk faktoru qohum evlilikləridir. Bunu aritmoloq, invaziv kardioloq Fərid Əliyev Səhiyyə Nazirliyinin "Instagram" hesabında "Ümumdünya Ürək Günü" mövsuzunda təşkil olunan canlı yayımda çıxışı zamanı deyib. O bildirib ki, ürək xəstəliyi riski hamiləliyin 5-6-cı həftəsində ana bətnində ürəyin formalaşdığı andan başlayır.

■ Bu il yanvarın 1-dən bu günə qədər Bakıda avtomobili sərxoş idarə edən 7 min sürücü aşkarlanıb. Bunu Bakı şəhər Dövlət Yol Polis İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli deyib. O bildirib ki, bununla da 7 min yol qəzasının qarşısı alınıb: "Bu il Bakı şəhəri üzrə 553 mindən artıq inzibati protokol tərtib edilib.



■ Cənubi Koreyanın "Samsung Electronics" şirkəti ABŞ-ın Texas ştatında 17 milyard dollar dəyərində yarımkeçiricilər zavodu inşa edəcək. Zavodun tikintisi yanvar ayında başlayacaq. Müəssisədə istehsal prosesinin 2024-cü ildə işə düşməsi planlaşdırılır.

■ Avropa birjalarında təbii qazın qiymətləri min kubmetr üçün min dollardan yuxarı həddə alınıb-satılır. Niderlandın TTF habında qazın min kubmetrinin qiyməti 1 040 dollara çatıb. Qazın qiyməti ötən sutka ilə müqayisədə 8 faiz artıb.

# Soçidə Rusiya-Türkiyə danışıqları



***Nəhayət 18 aylıq fasilədən sonra Soçidə bütün dünyanın, o cümlədən Azərbaycanın diqqət və böyük maraqla gözlədiyi Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğanla Vladimir Putin arasında görüş baş tutub. “Boçarev Ruçey” iqamətgahında keçirilən Rusiya və Türkiyə liderlərinin təkbətək görüşü təxminən 3 saat davam edib. Tərəflər Suriya, Liviya, Cənubi Qafqaz, Əfqanıstan və s. məsələlər ətrafında müzakirələr aparıblar.***



### Vladimir Putin, Rusiya Prezidenti

**- Təəssüf ki, pandemiya səbəbindən il yarımdan çoxdur üz-üzə görüşə bilmirik. Lakin buna baxmayaraq, daim təmasdayıq.**

Münasibətlərimiz müsbət məcrada inkişaf edir. Profil qurumlarımız daim bir-biri ilə bütün istiqamətlərdə işləyirlər. Ötən il iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 20 faiz azalıb. Bu ilin ilk doqquz ayında ticarət dövriyyəsinin həcmində 55 faiz artım qeydə alınıb. Biz nəinki pandemiya dövründə itirdiyimizi geri qazanmışıq, hətta önəmli bir artım əldə etmişik. Bizim danışıqlarımız heç də asan keçmir, lakin yekunda müsbət nəticə əldə olunur. Qurumlarımız hər iki tərəf üçün sərfəli güzəştləri axtarıb tapmağı öyrənib. Ölkələrimizin qarşılıqlı investisiyaları artmağa davam edir. Türkiyənin Rusiya iqtisadiyyatına investisiyasının həcmi 1,5 mlrd. dollara yaxındır.

Rusiyanın Türkiyə iqtisadiyyatına yatırdığı sərmayənin həcmi isə 6,5 mlrd. dollardır. Nəhəng layihələrimiz həyata keçirilir və onların həyata keçirilməsi plan üzrə gedir. “Türk axını” kəməri tam həcmdə işini davam etdirir. Fürsətdən istifadə edib, “Türk axını” qaz kəmərinin inşa olunmasında tutduğunun dəyişməz və ardıcıl mövqeyə görə sizə bir daha təşəkkürümü bildirirəm. “Türk axını” qaz kəməri layihəsi Rusiya və Türkiyə xalqlarının maraqlarına cavab verir. İndi biz Avropanın qaz bazarında baş verən mürəkkəb vəziyyəti, dalğalanmanı müşahidə edərkən, Türkiyə özünü tamamilə etibarlı və stabil hiss edir. “Akkuyu” AES-in inşası proqrama uyğun olaraq davam etdirilir.

V. Putin ölkəsinin beynəlxalq arenada da Türkiyə ilə uğurlu əməkdaşlıq etdiyini xüsusi vurğulayıb: “Suriya və Liviya ilə bağlı əməkdaşlığımızı nəzərdə tuturam. Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi aktiv fəaliyyət göstərir. Bu, sabitliyin və barışığa yönəlmiş gələcək addımların müəyyənləşdirilməsi üçün tərəflərin mövqelərinin razılaşdırılmasının ciddi təminatıdır. Müzakirə olunacaq məsələlər çoxdur. Sizi Rusiyada görməkdən çox şadam. Telefonla hər şeyi müzakirə edə bilmərik. Bir daha xoş gəlmisiniz!”

> *Qarabağda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi aktiv fəaliyyət göstərir*

> *Mən xüsusilə buna inanıram ki, Türkiyə-Rusiya münasibətlərinin hər keçən gün daha da inkişaf edib güclənməsində çox böyük fayda var*

### Rəcəb Tayyib Ərdoğan, Türkiyə Prezidenti

**- Dəyərli dostum Vladimir Putinlə yenidən üz-üzə görüşməkdən çox məmnunam. Həqiqətən də COVID-19 pandemiyası bir çox dostu bir-birindən ayırdı.**

Ərdoğan Türkiyədə meşə yanğınlarının söndürülməsində verdiyi dəstəyə görə V. Putinə özünün və Türkiyə xalqının adından təşəkkür edib.

“Həqiqətən də dostlar çətin günlərdə tanınır. Hər şeydən öncə siyasi, hərbi, iqtisadi sahələrdə Türkiyə-Rusiya əlaqələri həqiqətən də fərqli şəkildə özünü göstərir. İki ölkə arasında ticarət dövriyyəsində az şəkildə azalma və artımlar olsa da, hazırkı vəziyyət olduqca yaxşıdır.

Mən bu vəziyyətin daha yaxşı olacağına inanıram. Xüsusi ilə də turizm sahəsində dəstəyə görə çox təşəkkür edirəm. Bizim hərbi sənaye sahəsində birgə atdığımız addımlar müzakirə edəcəyimiz məsələlərdəndir. Bu mövzunu ayrıca müzakirə etməyimizdə fayda var. BMT Baş Assambleyasında bizdən bəzi mövzuları xüsusi ilə soruşdular.

Biz onlara lazımı cavabı verdik. Çünki atdığımız addımlardan geri dönməyimiz mümkün deyil. Mən xüsusilə buna inanıram ki, Türkiyə-Rusiya münasibətlərinin hər keçən gün daha da inkişaf edib güclənməsində çox böyük fayda var. Suriya ilə bağlı atdığımız birgə addımlar böyük əhəmiyyət daşıyır. Suriyada sülh Türkiyə-Rusiya münasibətlərindən asılıdır”, - Türkiyə dövlət başçısı vurğulayıb.

Ərdoğan qeyd edib ki, “Akkuyu” AES-də inşaat işləri plana uyğun olaraq davam edir: “Məndə olan məlumata görə, əvvəlcədən planlaşdırılan vaxtda “Akkuyu”nun inşası bitəcək. Fikrimcə, gələn il birinci blokun açılışını edə biləcəyik. Çox intensiv iş gedir. Hazırda AES-in tikintisində 13 min insan çalışır. Onların 10 mini türk, 3 mini isə rusiyalıdır. Demək olar ki, AES-də çalışanların əksəriyyəti Rusiyada təhsil alıb. Bu da bizim münasibətlərin möhkəmlənməsinə səbəb olub”.

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiyaya səfəri çərçivəsində Prezident Vladimir Putinlə baş tutan Soçi görüşü ilə bağlı gözləntilər müxtəlif aspektlərdə təhlil olunur. Bu görüşdən sonra Qafqazda nələr dəyişə bilər? Eləcə də, Putin-Ərdoğan görüşünün Azərbaycan-Ermənistan arasındakı problemlərə təsiri olacaqmı və bundan sonra atılacaq addımlara bağlı hansı razılaşmalar əldə olunacaq?***

■ **Bu istiqamətdə hafta.az-a açıqlama verən Milli Məclisin deputatı Asim Mollazadə bildirib ki, görüşdə regionda sülh və üçtərəfli bəyanatın icrası ilə bağlı məsələlər ifadə edilib.** Onun sözlərinə görə, Rusiya Zəngəzur dəhlizinin açılması ilə bağlı öz marağını dəfələrlə ifadə edib. Medianın iştirakı ilə keçirilən görüşdə Ağdamda yerləşən Türkiyə-Azərbaycan Monitorinq qrupunun fəaliyyətinə müsbət qiymət verilib.

“Mənə elə gəlir ki, üçtərəfli atəşkəs bəyanatının bütün bəndlərinin yerinə yetirilməsi ilə bağlı hansısa ciddi fikir ayrılığı olmamalıdır.

Türkiyə-Rusiya münasibətlərinin normal müstəvidə inkişafı əslində bizim bölgədə də sabitliyin, əməkdaşlığın, kommunikasiyaların açılmasına müsbət təsirini göstərəcək. Görüş başlayan zaman ikitərəfli münasibətlərin inkişafı - siyasi, iqtisadi əlaqələr, turizm məsələləri barədə deyildi və müsbət irəliləyişin olduğu qeyd olundu. Bu görüş müsbət nəticələnəcək və bizim bölgəmizdə də sabitliyin yaranmasına özünün təsirini göstərəcək”.

A.Mollazadə hesab edir ki, görüşdə müzakirə olunan əsas məsələ Suriya ilə bağlıdır. O, bu istiqamətdə də müəyyən razılıqların olacağına inandığını deyib. “Bu gün yeganə problematik məsələ Suriyadır. Orada da hansısa razılaşma mümkündür”.

■ **“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hafta.az-a bildirib ki, Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğanla Vladimir Putin arasında Soçidə başa çatan görüşdə liderlər Qarabağla bağlı da fikir mübadiləsi aparıblar.**

Kreml sahibi görüşün mətbuat üçün açıq hissəsində Türkiyənin Qarabağ məsələsində müsbət roluna bu cümlə ilə işarə edib: “Qarabağdakı atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi aktiv şəkildə fəaliyyət göstərir və bölgədə sabitlik üçün ciddi zəmanətdir” Vladimir Putin bu əməkdaşlığın sabitliyin və barışığa yönəlmiş gələcək addımların müəyyənləşdirilməsi üçün tərəflərin mövqelərinin razılaşdırılmasının ciddi təminatı olduğunu vurğulayıb. Politoloq xatırladıb ki, Rusiya prezidenti Türkiyənin Qarabağ məsələsindəki rolunu bir daha qeyd edib: "Kreml sahibi anlayır ki, Rusiya keçmiş illərdən fərqli olaraq bölgədə Türkiyənin maraqlarını nəzərə almadan hərəkət edə bilməyəcək. Ancaq Putin eyni zamanda Türkiyənin də Cənubi Qafqazdakı maraqlarıyla hesablaşmasını istəyir.

Aydındır ki, Kreml Azərbaycanın və Türkiyənin maraqlarını tam şəkildə nəzərə almayacaq və bir görüşlə bütün suallara cavab vermək mümkün deyil. Buna baxmayaraq, Soçidə Türkiyə və Rusiya prezidentlərinin növbəti görüşü Azərbaycanın maraqlarına cavab verir. Bu görüşlərin mütəmadi keçirilməsi və liderlər arasında telefon danışıqları tərəflərin bir-birindən asılılığını artırır. Əlbəttə, hər iki dövlətin liderinin baxışlarında fərqlər də var, ancaq önəmli olan dialoqun davam etməsi və ortaq nöqtələrin tapılmasıdır".

✍ *Azad*

## Müsahib




# “Qazilərimiz narazıdırlar”

***Şəhid Milli Qəhrəman Şirin Mirzəyevin xanımı, Milli Məclisin sabiq üzvü Flora xanım Qasımova bu günlərdə Türkiyənin Bursa vilayətindəki möhtəşəm parklardan birinin şəhid ömür-gün yoldaşının adına verilməsi mərasimində iştirak edib. Hafta.az üçün geniş müsahibəsində sabiq deputat qardaş ölkəyə 44 günlük savaşdakı zəfərimizdən sonrakı ilk işgüzar səfərinin təəssüratlarından, şəhid Milli Qəhrəmanımızın adına parkın açılışı zamanı keçirdiyi hisslərdən, Bursa xəstəxanalarından birində müalicə alan qazilərimizlə görüşündən danışıb.***

- Öncə qeyd edim ki, qardaş ölkəyə səfərimizin təşkilindəki dəstəyə görə Diaspora İş üzrə Dövlət Komitəsinə minnətdarlığımızı bildiririk. Komitənin rəhbəri Fuad Muradov məsələnin bilavasitə şəhid Milli Qəhrəmanımızın xatirəsi ilə bağlı olduğunu vurğulayaraq özü şəxsən bütün problemlərlə maraqlanıb. Həmin qurumun mətbuat xidmətinin rəhbəri, tanınmış teleaparıcı Vəsilə Vahidqızı isə səfər boyu və tədbirdə daim yol-yoldaşı kimi yanımızda oldu...

Türkiyə nəinki Azərbaycanın müstəqilliyini bərpa etdiyi son 30 ildə, ondan əvvəlki dönəmlərdə də, hətta sovet imperiyası dövründə belə, bizlərə isti qucağını açmağa hazır olan qardaşımız olub. Bu fikir artıq dəfələrlə deyilib... Amma yenə də təkrar-təkrar deməliyik. Əgər 1918-ci ilin yayında Osmanlı Türkiyəsi Ənvər paşanın göstərişi, Nuru paşanın başçılığıyla yaradılmış Qafqaz İslam Ordusunu Azərbaycana göndərməsəydi, bəlkə də indi biz sizinlə Bakıda belə rahat oturub söhbət edə bilməzdik. Bizim yerimizə nəinki Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Kürdəmirdə, Qarabağda, Şuşada, Laçında, Gəncədə, Qazaxda, Naxçıvanda da yalnız ermənilər, ruslar və b. yaşayardı. Düz 102 il sonra, yenə də sentyabr ayında sanki tarix yenidən təkrarlandı. Ali Baş Komandanın sentyabrın 27-də başlatdığı ordumuzun Qarabağa 44 günlük müzəffər yürüşündə də Türkiyə rəhbərliyi, ordusu və xalqı həm mənəvi, həm siyasi-ideoloji, həm də maddi-texniki baxımdan yanımızda, arxamızda oldu...

Bu dəfə biz Türkiyədə, Bursanın Karacabey rayonunda həmişəki kimi səmimi, mehriban, amma qalib bir xalqın nümayəndələri olaraq daha qürurlu, daha ruhverici, daha isti bir qarşılanma yaşadıq. Açılış tədbirinin keçirildiyi məkanda bizi Osmanlı Türkiyəsinin məşhur “Mehtər” marşı ilə qarşıladılar. Bilirsiz ki, bu möhtəşəm musiqi əzəməti, əhtişamı və görkəmliliyi, dövlətin, xalqın böyüklüyünü, ucalığını əks etdirən bir əsərdir...

***- Şəhid Milli Qəhrəmanımızın adına Bursa vilayətindən park açılması ilk olaraq kimin təşəbbüsü olub?***

- Bu təşəbbüsü öncə Şəmkir rayonundan olan Hüseyn Vəliyev ad-soyadlı çox sadə, təvazökar, səmimi, eyni zamanda vətənpərvər, millətsevər bir soydaşımız irəli sürüb. Bir müddət Moskvada yaşadıqdan sonra Bakıya qayıdıb. Lakin Azərbaycanda işləri alınmadığından Türkiyəyə köçüb. Burada bir müddət inşaatla məşğul olduqdan sonra təqaüdə çıxıb və Bursada “Gələcəyin İnsanları Məkanı, Gələcəyin İmkanları Məkanı - Azərbaycan deyincə” dərnəyini yaradıb. Bəhs edilən parka Şirin Mirzəyevin adının verilməsini Hüseyn bəy məhz bu dərnəyin başqanı olaraq irəli sürüb. Bundan əvvəl isə onun təşəbbüsü ilə Milli Qəhrəmanımız Polad Həşimov adına da park açılıb. Biz səfərimiz zamanı həmin parkı da ziyarət etdik. Eyni zamanda xeyirxah həmyerlimiz, Əhməd Cavad adına da park açdırmağa çalışır. Azərbaycanın görkəmli şəxsiyyətlərinin və xüsusən Qarabağ şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün gördüyü belə işlərə görə Hüseyn bəy xüsusi təşəkkürlərə layiqdir...

Şirin Mirzəyev adına parkın meydana gəlməsində Azərbaycanda Hüseyn Vəliyevin əlaqə saxladığı Milli Qəhrəman Raquf Orucovun xanımı, “YAŞAT” fondunun üzvü Sevinc Orucova, Milli Qəhrəman Asif Məhərrəmov adına fondun rəhbəri Ədalət Məhərrəmov və Qarabağ Qaziləri ictimai birliyi mətbuat xidmətinin rəhbəri Rey Kərimoğlunun da zəhməti olub. Onlara da minnətdarlığımızı yetiririk...

***- Parkın açılışı günü hansı təsirli məqamlarıyla yaddaşınıza həkk olundu?***

- Sentyabrın 21-də - açılış günü Karacabey rayon bələdiyyəsinin sədri Əli Özkan və digərləri bizi çox səmimi qəbul etdi. Bundan sonra bələdiyyə sədri, bələdiyyə üzvləri, eyni zamanda Bursa bələdiyyə sədrinin vəkili, Karacabey rayonunun prokuroru, AKP-nin Bursa vilayəti üzrə başqan yardımçısı Ferhat Erol, rayonda fəaliyyət göstərən bir sıra digər dərnəklərin üzvləri, Türkiyədə yaşayan bir neçə azərbaycanlı və vaxtilə Azərbaycanda yaşamış məhsəti türklərinin nümayəndələri və s. rayonun Qurşunlu məhəlləsində salınmış gözəl parka toplandıq.



**Flora Qasımova,**
Şəhid Milli Qəhrəman Şirin Mirzəyevin xanımı, Milli Məclisin sabiq üzvü

Açılışda bələdiyyə sədri Əli bəy Özkan çox təsirli çıxış etdi. Rəhmətlik Bəxtiyar Vahabzadənin şeirlərindən söylədi, onun hələ sovet dövründə ilk dəfə Türkiyəyə gələrkən keçirdiyi hisslərdən bəhs etdi...

Hüseyn Vəliyev çıxışı zamanı sevincindən az qalırdı ağlasın. O, şəhidlərimizə, Türkiyə lideri Rəcəb Tayyib Ərdoğana həsr edilmiş şeirlər səsləndirdi... Bir sözlə, açılışdakı çıxışlar məni çox təsirləndirdi. Öz çıxışımda bəhs edilən parka şəhid Milli Qəhrəmanımızın adının verilməsinə görə Türkiyə və Azərbaycandakı bütün təşkilatçılara, xidməti olanlara minnətdarlığımı çatdırdım. Ali Baş Komandan başda olmaqla müzəffər ordumuzun 44 günlük savaşı sayəsində torpaqlarımızın əksər hissəsinin azad edilməsini vurğulayaraq bu müqəddəs işdə bizə dəstəyini əsirgəməmiş qardaş Türkiyə rəhbərliyinə də təşəkkürümü ifadə etdim... Çıxış edərkən çox həyəcan keçirdim və bir anlıq mənə elə gəldi ki, Şirin də 44 günlük savaşımızda bir komandir kimi iştirak edib, işğalına hədsiz ağrıdığı Şuşanın azadlığı üçün də döyüşüb və hazırda qalib ordunun zabiti kimi həmin parkda çıxış edir. Eyni zamanda Şirinin adının Türkiyədə də əbədiləşdirilməsi mənə böyük ruh və mənəvi güc verdi.

Tədbir zamanı Şuşa Rayon İcra Hakimiyyəti mədəniyyət şöbəsinin müdiri Zahid Abbasovun hazırladığı Şuşadakı Natəvan bulağının təsviri olan tablo və üzərində xarı bülbül şəkli olan miniatür boşqabı Karacabey bələdiyyə sədrinə hədiyyə etdim. Əli bəylə söhbətimizdə ona çatdırdım ki, Azərbaycan və Türkiyə liderləri arasında Şuşa Bəyannaməsi məhz Natəvan bulağı yanında imzalandı. Həmçinin tədbirdə iştirak edən Bursa Böyükşəhər bələdiyyəsinin nümayəndələrinə də Azərbaycanın Qələbəsini əks etdirən xatirə hədiyyələri təqdim etdik.

***- Flora xanım, şəhid ömür-gün yoldaşınızın adını daşıyacaq parkın yeri, məkanı ürəyinizə yatdımı?***

- Bəli. Park doğrudan da çox gözəl bir məkanda - Mərmərə dənizinin sahilində, eyni zamanda dağ ətəyində yaşıllıqlara qərq olmuş bir mənzərəli yerdə salınıb. Parkda uşaqlar, gənclərlə yanaşı, böyüklər də həvəslə istirahət edirlər. Uşaq əyləncə qurğularıyla bərabər, kafelər, çayxanalar da fəaliyyət göstərir. Parkın girişinə Azərbaycan və Türkiyə bayraqları sancılıb, Karacabey bələdiyyəsinin hazırlatdığı, üzərinə “Azərbaycanın Milli Kahramanı Şirin Mizayev parkı” yazılmış lövhə, bir az irəlidə isə şəhid Milli Qəhrəmanımızın təsvirləri və barəsində geniş məlumat əks olunmuş digər lövhə vurulub.

***- Bildiyimizə görə, parkın açılışından sonra Bursa xəstəxanalarından birindən müalicə alan Tovuz döyüşləri və 44 günlük müzəffər savaşımızın qazilərini də ziyarət etmisiniz.***

- Bəli, tədbirdən sonra Hüseyn Vəliyevlə və Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri, tanınmış teleaparıcı Vəsilə Vahidqızı ilə birgə Bursa şəhərindəki xəstəxanalardan birində müalicə olunan 44 günlük müzəffər savaşımızın 12 qazisini ziyarət etdik. Canlarını xalqımız, Vətənimiz, hər birimiz uğrunda fəda etmiş bu igidlərimizə maddi və mənəvi yardım etməyi özümüzə borc bildik.

Qəhrəman qazilərimizin hamısı əlil arabasında idi... Bizi görəndə çox təsirləndilər. Onlar əsasən 2020-ci ilin iyulundakı Tovuz döyüşlərində, eləcə də 44 günlük savaş zamanı Füzuli və Cəbrayıl ərazilərində vuruşub sağlamlıqlarını itirmiş döyüşçülərimizdir. Onlar Bursa xəstəxanasında Türkiyə həkimlərinin müalicəsindən də razıdırlar.

***- Yəqin ki, qazilərimizin problemləri ilə də maraqlanmısınız?..***

- Əlbəttə, onların hər biri ilə yaxından tanış olmağa, söhbət etməyə çalışdıq. Təəssüf ki, bəziləri danışmaqda da çox çətinlik çəkir. Qazilərimizin çoxu “YAŞAT” fondundan da razılıq edirlər. Sakinləri olduqları rayonların icra hakimiyyətlərindən, yerli məmurlardan, qeyri-hökumət təşkilatlarından şikayətləndilər. Onların rayonlardakı ailələləri ilə, demək olar ki, heç kəsin maraqlanmadığını bildirdilər. Qazilərdən biri bildirdi ki, sakini olduğu rayonun icra hakimiyyətindən onun evinə zəng edib 27 sentyabr - Şəhidlərimizin Anım Gününə dəvət ediblər. Deməli, yerlərdəki bir çox məmurların məsul olduqları rayonlarda, şəhərlərdəki qazilərin durumundan, harada, xəstə və ya sağlam olduqlarından məlumatı yoxdur. Biri deyir ki, məni uşaqlıqdan babam saxlayıb, 80-dən yuxarı yaşı var, cəmi 200 manat pensiya alır. Heç kəs də maraqlanmır onunla, telefonda danışanda ağlayır...

> *Şirinin adının Türkiyədə də əbədiləşdirilməsi mənə böyük ruh və mənəvi güc verdi*

Kürdəmir rayonunun sakini Əhmədzadə Turanın atası hazırda qarğıdan tikilmiş evdə yaşayır. O bildirib ki, yalnız bu yaxınlarda Milli Məclisin 7 saylı Kürdəmir seçki dairəsindən deputat Əminə Ağazadə ailəsinin problemləri ilə maraqlanıb, onlara maddi yardım göstərib.

Yevlax rayonundan olan Yusif Ağaməmmədovun sözlərinə görə, Bakıdan ona göndərilmiş əlil arabası mühərriksiz, pultsuz olub. Üstəlik, uşaq üçündür. Xeyli keçəndən sonra mühərrikini yollayıblar. İndi də pultu yoxdur. Qazimizin boyu 1 m 80 sm olduğu halda ona kiçik ölçülü araba yollayıblar. Ona görə də hərəkət zamanı çox böyük çətinlik çəkir. Anası deyir ki, aylardır müalicə olunsa da, Yusifin səhhətində heç bir irəliləyiş yoxdur. Xahiş edir ki, dövlətimiz, yaxud xeyriyyə fondları qazi oğlunu müalicə üçün Almaniyaya göndərsin.

✍ *Sultan Laçın*

PREZİDENTİN İŞ GÜNÜ

# Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri ilə görüşüb



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb. Hafta.az xəbər verir ki, Gürcüstanın Baş nazirini salamlayan Prezident İlham Əliyev dedi:***

- Hörmətli cənab Baş nazir, sizi görmək çox xoşdur. Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə yenidən görməyə şadam. Biz bu il artıq ikinci dəfədir ki, görüşürük. Həmçinin bizim ikitərəfli münasibətlərimizin mühüm məsələlərinin müzakirəsini apardığımız bir neçə telefon danışığımız olub. Bu gün biz dialoqumuzu davam etdirəcəyik. İki qardaş ölkə arasında siyasi dialoq həmişə fəal olub və indi də fəal olmaqda davam edir. Biz xarici siyasətlə bağlı məsələlərdə sıx əməkdaşlıq edirik, xüsusilə indi yeni çağırış və imkanlar olan regionumuzda.

Əlbəttə ki, ölkələrimiz arasında siyasi əlaqələrin güclən-

Əlbəttə ki, biz bu gün neft və qaz, elektrik enerjisi, nəqliyyat sahələri kimi əməkdaşlığımızın ənənəvi sahələri haqqında da danışacağıq. Bunlar artıq həyata keçirilmiş layihələrdir və indi biz bu layihələrin faydasını görürük. Bu, bizim ölkələrimiz arasında əməkdaşlığın çox xüsusi formatını yaradıb. Çünki bu layihələr təkcə bizim ölkələrimiz üçün deyil, Avrasiya regionunda bir çox ölkələr üçün əhəmiyyət kəsb edir. Əminəm ki, bugünkü səfər əməkdaşlığımıza yeni təkan verəcək.

Dəvətimi qəbul edib ölkəmizə səfərə gəldiyiniz üçün sizə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha xoş gəlmisiniz!

**Baş nazir İrakli Qaribaşvili dedi:**

- Cənab Prezident, bizi dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Burada, Bakıda olmaqdan böyük məmnuniyyət hissi keçirirəm. Səmimi qəbula və qonaqpərvərliyinizə görə çox sağ olun. Bu, mükəmməl olan ikitərəfli əlaqələ-



dirilməsi nəinki təkcə bizim xalqlarımız üçün, eyni zamanda, bütün region üçün önəmlidir. Mən bəzi məlumatlara nəzər saldım və gördüm ki, iqtisadi inkişaf sahəsində bizdə yaxşı irəliləyiş var, ticarət dövriyyəsi artır. Bu gün hökumətlərarası komissiyanın iclası olacaq. Mən əminəm ki, bu iclasda bir çox mühüm sahələr əhatə olunacaq, görülmüş işlərə nəzər salınacaq və gələcək addımlarımız planlaşdırılacaq.

Ölkənizdəki çox müsbət investisiya mühiti, sizə bir çox sosial və iqtisadi məsələləri həll etməyə imkan verən iqtisadi islahatlar bizi çox məmnun edir. Həmçinin hökumətinizi Gürcüstandakı bütün sahələrdəki inkişafla bağlı əldə etdiyiniz böyük uğur münasibətilə təbrik etmək istəyirəm. Biz dost və qardaş olaraq bu inkişaf proseslərini görməyə çox şadıq, yeni səylərinizdə şəxsən sizə və hökumətinizə uğurlar arzulayırıq.

rimiz barədə danışmaq üçün böyük imkandır. Qeyd etdiyiniz kimi, biz dost, qardaşıq. Bu gün biz, həmçinin iqtisadi komissiyanın 8-ci iclasını keçirəcəyik və inkişafda olan ikitərəfli əlaqələrimizi müzakirə edəcəyik.

Gürcüstan sözsüz ki, siyasi, iqtisadi, mədəni və digər sahələrdə ikitərəfli əlaqələrimizin güclənməsində maraqlıdır. Biz, həmçinin regionda sülh və sabitliyin olmasında maraqlıyıq. Bu, güclü iqtisadi inkişafın təməli olacaq.

Bu, mənim bu il Azərbaycana artıq ikinci səfərimdir. Cənab Prezident, qeyd etdiyiniz kimi, biz dəfələrlə telefonla danışmışıq. Əminəm ki, bu gün biz gələcəyimizlə bağlı bir çox məsələləri müzakirə edəcəyik. Əminəm ki, bu, daha bir səmərəli görüş olacaq. Mən bir daha Sizə təşəkkür edirəm!

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili işçi nahar etdilər.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Həmrəylik

# Anım yürüşü Xalq Birliyinin əzəmətini göstərdi

***27 srntyabr Şəhidlərimizi Anım Gününün kuliminasiya nöqtəsi Azərbaycan Prezidenti və birinci vitse-prezidentinin iştirakı ilə təşkil edilən yürüş idi. Bu yürüş ictimaiyyət nümayəndələri tərəfindən böyük rəğbət hissi ilə qarşılandı.***





"İlk dəfə keçirilən şəhidlərimizin Ümumxalq Anım Günü həqiqətən də tariximizdə qızıl hərflərlə yazılacaq bir hadisə oldu. Bu münasibətlə təşkil olunan bütün tədbirlər bir-birindən möhtəşəm idi. Anım Gününün zirvəsində isə möhtərəm Prezidentimizin və Birinci vitse-prezidentimizin iştirakı ilə keçirilən yürüyüş idi. Bu yürüyüş unikallığına, orijinallığına görə fərqlənirdi".

■ **Bunu hafta.az-a açıqlamasında millət vəkili Məlahət İbrahimqızı deyib. Deputat onu da qeyd edib ki, sözügedən yürüş ölkə Prezidentinin, Birinci vitse-prezidentin şəhidlərimizin əziz ruhuna olan ehtiramının ifadəsi idi:** "44 günlük Vətən Müharibəsində şəhid olan 3000-ə yaxın hər bir qardaşımızın, eləcə də Arəstə bacımızın, terror qurbanı olan in-

> *Qələbə Azərbaycan xalqının, Azərbaycan dövlətinin gücünü, nüfuzunu, qüdrətini göstərdi*

sanlarımızın gözəl hazırlanmış fotoları ilə keçirilən yürüyüş bir sıra beynəlxalq mətbuatın da diqqətini çəkdi. Mən bu gün mətbuatı izlədim və gördüm ki, bir sıra dünya mediası, eləcə də qardaş Türkiyənin mətbuatı bu yürüyüşü gündəmdə saxlayır. Bir daha vurğulayıram ki, bu yürüş ölkə Prezidentinin, Birinci vitse-prezidentin şəhidlərimizin əziz ruhuna olan ehtiramının ifadəsi idi. Bu yürüş həm də Azərbaycan xalqının əzəmətini, yenilməzliyini, birliyini, həmrəyliyini göstərir. Qəddar və qatil qonşumuz olan Ermənistanın üzərində Azərbaycan xalqının əbədi zəfərini nümayiş etdirir.

Erməni xalqı təcavüzkar xalq olaraq tarixə yazılmışdır. Törətdiyi cinayətlər, terrorlar indiyə qədər bir sıra hesabatlarda öz əksini tapıb və düşünürəm ki, Azərbaycan xalqının bu zəfəri təkcə Ermənistan üzərində qələbə deyildi. Bu, bütövlükdə Ermənistanı dəstəkləyən, ermənipərəst təşkilatlların, erməni lobbisi, eləcə də bir sıra beynəlxalq təşkilatların, güclərin üzərində qələbə idi. Qələbə Azərbaycan xalqının, Azərbaycan dövlətinin gücünü, nüfuzunu, qüdrətini göstərirdi və Müzəffər Ali Baş Komandanımız əyilməzliyini, məğlubedilməzliyini göstərdi. Dünənki gün erməni faşistlərinə, revanşistlərə həm də bir dərs idi. Hesab edirəm ki, onlar bu müharibədən, ötən müddət ərzində görülən işlərdən dərs çıxaracaqlar. Bir daha Azərbaycana və Türkiyəyə qarşı qərəzli mövqe göstərməyəcəklər. Erməni xalqının, Ermənistan dövlətinin mövcudluğu da Azərbaycan və Türkiyə ilə konstruktiv əməkdaşlıqdan keçir. Bu ölkə dalan vəziyyətinə düşmüş bir dövlətdir. Əgər erməni xalqı öz mövcudluğunu istəyirsə, Ermənistan dövlətinin müstəqilliyini, süquta uğramamasını istəyirsə, Azərbaycan və Türkiyəyə qarşı səmimi olaraq konstruktiv qonşuluq siyasəti həyata keçirilməlidir. Onlar buna məhkumdur. 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan heç nə qazanmadı, əksinə, ölkədə səfalət, yoxsulluq, rəzalət hökm sürdü. Onlar baş verən hadisələrdən dərs çıxarmalıdırlar". M.İbrahimqızı vurğulayır ki, Azərbaycan xalqı həmişə öz qəhrəman oğulları ilə fəxr edib: "Bir daha bütün şəhidlərimizə rəhmət diləyirik, ruhları qarşısında baş əyirik. Onları böyüdüb boya-başa çatdıran valideynlərin qarşısında baş əyirik ki, belə övladlar yetişdiriblər. Azərbaycan xalqı həmişə öz qəhrəman oğulları ilə fəxr edib. Azərbaycan xalqı üçün torpaq həmişə şərəf, namus, ləyaqət, qürur olub. Şəhidlərimiz, qazilərimiz öz canları, öz sağlamlıqları, öz həyatları ilə Azərbaycan xalqının şərəfini, ləyaqətini, qürurunu ucalara qaldırdılar, xalqımıza başucalığı gətirdilər".

> *Ali Baş Komandanın göstərişi ilə 27 sentyabr Anım Gününün milli qürur günü kimi qeyd edilməsi, Azərbaycan dövlətinin, xalqının şəhidlərin xatirəsini uca tutmasından xəbər verir*

"27 sentyabr 44 günlük müharibənin, möhtəşəm qələbənin başlandığı gündən bir il keçdi. Bu münasibətlə bütün ölkə ərazisində anım mərasimləri təşkil olunub. Prezidentin xalqa Müraciətindən sonra 1-ci vitse-prezident Mehriban Əliyeva və hərbçilərlə birgə Bakı küçələrində təşkil olunmuş yürüşdə iştirakı vətən uğrunda canından keçmiş qəhrəmanlarımızın xatirəsinin əziz tutulmasını nümayiş etdirdi".

■ **Bu fikirləri hafta.az-a açıqlamasında millət vəkili Müşfiq Cəfərov bildirib. O vurğulayıb ki, Ali Baş Komandanın göstərişi ilə 27 sentyabr Anım Gününün milli qürur günü kimi qeyd edilməsi, Azərbaycan dövlətinin, xalqının şəhidlərin xatirəsini uca tutmasından xəbər verir:**

"Cənab Prezidentin xalqa müraciət edərək, şəhidlərimizin əziz xatirəsini anması ölkə başçısının vətənə, millətə bağlığını bir daha göstərdi. Ali Baş Komandanın göstərişi ilə 27 sentyabr Anım Gününün milli qürur günü kimi qeyd edilməsi, Azərbaycan dövlətinin, xalqının şəhidlərin xatirəsini uca tutmasından xəbər verir. Bu tarixi qələbə təkcə torpaqların geri qayratılması deyil, ilk növbədə məğlub xalq sindromundan qurtulma, milli ləyaqətimizin bərpa olunması, Müzəffər Xalq, Qalib Dövlət deməkdir".

■ **"Anım yürüşü möhtəşəm idi. Bu yürüş Prezident-Xalq-Ordu birliyinin təcəssümü idi. Bu yürüş xalqımızın yenilməzliyinin göstəricisi idi".**

Bunu hafta.az-a açıqlamasında Anım Günü Bakıda keçirilən və ölkə Prezidentinin də qatıldığı yürüyüş barədə fikirlərini bölüşərkən millət vəkili Tahir Rzayev bildirib. Millət vəkili qeyd edib ki, Anım Günü iştirak etdiyi bütün tədbirlərdə Azərbaycan xalqının yenilməzliyinə, dəmir yumruq kimi birliyinə bir daha şahid olub: "Mən hazırda rayondayam. Dünəndən Anım Günləri ilə bağlı keçirilən tədbirlərdə iştirak edirəm. İnanırsınız ki, həmin tədbirlərdə minlərlə insan var idi, şəhid anaları, ataları, övladları, bacıları, qardaşları vardı. Onların etdiyi çıxışları emosiyasız dinləmək mümkün deyildi. O qədər qürurlu idilər, ölkə rəhbərliyinə öz rəğbətlərini bildirirdilər, qələbəni sevinclə alqışlayırdılar. Onlar fəxrlə deyirdilər ki, övladlarımız Vətən yolunda şəhid olublar. Şəhid övladı deyirdi ki, mən xoşbəxtəm atam torpağımız uğrunda vuruşaraq şəhid olub. 5 yaşlı şəhid balası çıxış edib bildirirdi ki, mənim atam qəhrəmandır, gedib torpaqlarımızı ermənilərdən alıb. Yəni, deməyim odur ki, bizi böyük Qələbəyə aparan elə bu həmrəy-

> *Şəhid övladı deyirdi ki, mən xoşbəxtəm atam torpağımız uğrunda vuruşaraq şəhid olub*

lik, birlik, ölkə rəhbərliyinə inam oldu. Ölkə Prezidenti elə bir möhtəşəm addım atıb ki, bu silinməz bir tarixə çevrilib. Dünənki yürüş də bütün dünyaya bir nümunə idi ki, ölkə rəhbərliyi Anım Gününü belə qeyd edir. Anım Günü qələbəyə yolun başlandığı gündür, Zəfərə açılan cığırdır.Çox qürür dolu anlardır. Allah həmişə xalqımızı var etsin, Prezidentimizi, əsgərlərimizi qorusun. Şəhidlərimizin ruhu şad olsun".

✍ ***Sevinc***

# Dövlətdən oğurlanan milyonlar

◂ əvvəli 1-ci səhifədə

■ **Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin koordinatoru Əliməmməd Nuriyev bildirib ki, Cinayət Məcəlləsində cinayət hüquqi xarakterli tədbirlərdən biri xüsusi müsadirədir:**

"Xüsusi müsadirə o zaman baş verir ki, fiziki və ya hüquqi şəxslər tərəfindən korrupsiya cinayətləri nəticəsində həmin əmlak əldə edilib. Yəni, əgər istintaq müəyyən etsə ki, əmlak təqsirləndirilən şəxslərin korrupsiya əməlləri nəticəsində əldə olunub, o zaman ilkin istintaq zamanı həmin əmlak üzərində həbs qoyulur. Daha sonrakı məhkəmə zamanı isə əmlakın xüsusi müsadirəsi baş verir. Xüsusi müsadirə baş verəndən sonra əmlak Hərrac Mərkəzlərində hərraca çıxarılaraq satılır. Əmlakları müstəqil qiymətləndiricilər qiymətləndirirlər və onlar bu prosesə dəvət edilərək satışa çıxarılan əmlaka qiymət təyin edirlər. Qiymətləndirmənin əsas kriteriyası isə bazara uyğunluqdur və əmlakın dəyəri bazara uyğun müəyyən olunur. Ola bilsin ki, əmlak satışa çıxarılan qiymətə satılmır. O zaman əmlakın qiymətinin aşağı düşməsi prosesi baş verir. Əmlakın miqdarı dəymiş ziyana uyğun olduqda isə tam dövlətin nəfinə çıxarılır. Əgər bu dəyər dəymiş ziyandan çox olarsa, o zaman dəymiş ziyan dövlətin nəfinə çıxılır, qalan əlavə vəsait də sahibinə qaytarılır. Və yaxud əmlak daha ucuz qiymətə satıldığı halda təqsirləndirilən şəxs dəymiş ziyanın tamamilə ödənilməsinə məsuliyyət daşıyır".

Vətəndaş cəmiyyəti institutunun nümayəndəsi olaraq bu kimi hərracları müşahidə edib-etmədiyinə gəlincə, Ə. Nuriyev deyib ki, indiyədək bununla bağlı ona hansısa dəvət gəlməyib: "Əslində hərracların keçirilməsində hansısa problem görmürəm. Bu prosesdə istənilən vətəndaş iştirak edə və satışa çıxarılan əmlakı ala bilər. Çünki bu hərraclar açıq hərraclardır və proses də hamının gözü qarşısında baş verir. Bununla bağlı müvafiq elanlar da yəqin ki, verilir. Sadəcə olaraq mən bu prosesi izləməmişəm. Heç bu prosesləri izləmək arzumu da bildirməmişəm. Əlbəttə ki, mən Şəffaflıq Azərbaycan Təşkilatının icraçı direktoruyam. Beynəlxalq Şəffaflıq Təşkilatının Azərbaycan bölməsinin rəhbəriyəm. Yəni, bizim əsas fəaliyyət istiqamətlərimiz korrupsiyaya qarşı mübarizə ilə bağlıdır. Təbii ki, bu məsələlərlə bağlı daha çox şəffaflığın olması fikri ilə razıyam. Çünki oğurlanmış əmlak dövlətindir və ya ayrı-ayrı vətəndaşlara məxsusdur. Rüşvət alınması bir qayda olaraq daha çox vəzifəli şəxslər tərəfindən baş verir. Onlar bu yolla əldə etdikləri əmlakı yalnız ölkə daxilində deyil, həm də ölkə xaricində saxlayırlar. Ölkə kənarında olan belə əmlakların, vəsaitlərin geri qaytarılması istiqamətində də dövlətlərarası müqavilələrə uyğun olaraq addımlar atılır. Eyni zamanda, Azərbaycan Korrupsiya Əleyhinə Konvensiyanı ratifikasiya edib. Həmin Konvensiyada ölkədən qanunsuz olaraq çıxarılan vəsaitlərin geri qaytarılması məsələsi öz əksini tapıb".

**Yeri gəlmişkən, Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi xarici ölkələrdə yerləşən əmlakın müsadirə edilməsi, həmin əmlakın yaxud onun dəyərinin ölkəyə qaytarılması məqsədilə zəruri tədbirlər görüb.** Sözügedən idarənin rəisi Vüqar Əliyevin sözlərinə görə, ilk dəfə olaraq məhkum edilmiş şəxslərin xaricdə olan əmlakların müsadirə edilməsi məqsədilə Cinayət Prosessual Məcəlləsinin 521-ci maddəsinin tələblərinə əsasən 2 şəxs barəsində çıxarılmış məhkəmə qərarları və digər zəruri sənədlərin sorğu verilən xarici ölkələrin dillərinə tərcüməsi təmin edilib, təqsirləndirilən şəxsin adına Türkiyənin "Yapı Kredi Bank"ındakı hesabında 87 740,39 ABŞ dolları, Almaniyanın "Deutche Bank"ındakı hesabında 10 142 832,04 dollar və İsveçrənin kommersiya bankındakı 1 257 222 dollar məbləğində pul vəsaitinin xüsusi müsadirə edilməsi ilə bağlı həmin dövlətlərin səlahiyyətli orqanlarına ünvanlanması üçün beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq vəsatətlər hazırlanıb və aidiyyəti üzrə göndərilib. Fəaliyyət göstərdiyi müddət ərzində İdarə istintaq qurumlarının sorğusuna əsasən 35 sayda əmlakın o cümlədən, 3 torpaq sahəsi, 6 nəqliyyat vasitəsi, 26 daşınmaz əmlakın mövcudluğunu yerində yoxlanılmaqla bazar konyunkturasına uyğun qiymətləndirib. Təqdim olunan məlumatlar əsasında sorğu verən istintaq orqanının qiymətləndirdiyi əmlakların üzərinə həbs qoyulub.

## Hərracların şəffaflığı sual altındadır

■ **Hüquqşünas Əkrəm Həsənov isə hafta.az-a açıqlamasında bildirib ki, məmurlardan müsadirə olunmuş əmlaklar adətən hərraca çıxarılır və oradan satılır. Amma Azərbaycanda hərraclar şəffaf olmadığından bu prosesin necə keçirildiyi sual altındadır:** "Bilinmir ki, hərrac nə vaxt baş tutacaq, ilkin qiymət nə qədər qoyulur. Bu haqda informasiya çox dar çərçivəyə bəllidir. Yəni dövlətdən oğurlanan pullara əldə olunan mal-mülkün geri alınmasından dövlətin büdcəsinə qəpik-quruş da qayıda bilər. Azərbaycanda hərraclar faktiki olaraq şəffaf deyil. Ümumiyyətlə isə həbs olunan icra başçılarının, məmurların mal-mülkləri dövlət nəfinə müsadirə olunmalıdır. Qanuna görə, həbsə alınan şəxslərin mal-mülklərinin üzərinə həbs qoyulur, həmin əmlaklar həbsə alan orqanın sərəncamında olur. İstintaq dövründə həmin əmlaklar sübut növüdür. Əmlaklar məhkəmə hökmü çıxana qədər tutulan, ittiham olunan şəxslərin sayılır. Məhkəmənin hökmündən asılı olaraq həmin əmlaklar dövlət nəfinə keçə bilər və ya sahibi bəraət alarsa, onun üzünə qaytarılmalıdır. Digər bir tərəfdən, dövlət büdcəsinin icrası haqda hesabat veriləndə bildiyim qədər ayrıca bənd olaraq bu haqda məlumat verilmir, göstərilmir. Yaxşı olardı ki, müsadirə olunmuş əmlaklarla bağlı ayrıca məlumat verilsin. Hər kəs bilsin ki, dövlətdən oğurlanan əmlak gec-tez geri alınır, dövlətə qaytarılır, daxil olan vəsaitlərin həcmi nə qədərdir və s". Müsadirə olunan əmlaklarla bağlı hərracların nə zaman keçirildiyini dəqiqləşdirmək üçün İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə əlaqə saxlamağa çalışsaq da, zənglərimizə cavab verən olmadı.

## Satılan əmlakdan əldə olunan vəsait 3 iş günündə büdcəyə köçürülür

■ **Mövzu ilə bağlı Maliyyə Nazirliyindən hafta.az-ın sorğusuna cavab olaraq isə bildirilib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2020-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası" ilə Cinayət Məcəlləsinin 99-1.1-ci maddəsinin, habelə Cinayət-Prosessual Məcəllənin 132-ci maddəsinin tələblərinə uyğun olaraq xüsusi müsadirə olunmuş əmlakın dövlət nəfinə verilməsi qaydası müəyyən edilib:** "Həmin Qaydanın 2.10-cu bəndinin xüsusi müsadirə edilməli əmlak saxlanıldığı yerdə icra məmuru tərəfindən Maliyyə Nazirliyinin yerli maliyyə orqanına, nazirliyin yerli maliyyə orqanı tərəfindən isə dərhal aidiyyəti təşkilatlara təyinatı üzrə "Qəbul-təhvil aktı" və "Qaimə-faktura" əsasında təhvil verilir. Əmlakın təhvil verilməsi icra məmurunun, Maliyyə Nazirliyinin yerli maliyyə orqanının, saxlayıcının və əmlakı təhvil alan aidiyyəti təşkilatın nümayəndələrinin iştirakı ilə tərtib edilən "Xüsusi müsadirə edilmiş əmlakın qəbul-təhvil aktı" ilə rəsmiləşdirilir. Akt dörd nüsxədən ibarət tərtib olunur və əmlakın təhvil verilməsi prosesində iştirak edən şəxslərə təqdim edilir. Xüsusi müsadirə edilmiş əmlakın satış məqsədilə təhvil verilməsi halları istisna olmaqla, daşınmaz və rəsmi reyestrdə qeydiyyata alınan daşınar əmlakları təhvil alan təşkilatların hesabına və müraciəti əsasında onlar üzərində hüquqlar müvafiq qeydiyyat orqanları tərəfindən qeydiyyata alınır".

**Qurumdan vurğulanıb ki, sözügedən Qaydanın 3.1.8-ci yarımbəndinə əsasən bu Qaydanın 3.1.1-3.1.7-ci yarımbəndlərində əhatə olunmayan xüsusi müsadirə edilmiş əmlakın satışı Maliyyə Nazirliyinin sifarişi əsasında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən hərrac yolu ilə həyata keçirilir**: "Həmin Qaydanın 3.6-cı bəndinə əsasən Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən xüsusi müsadirə edilmiş əmlakın satışından əldə edilən vəsait həmin əmlakın saxlanılması, satışı xərcləri və qanunvericiliklə müəyyən olunan digər ödənişlər çıxılmaqla 3 (üç) iş günü müddətində dövlət büdcəsinə köçürülür və bu barədə Maliyyə Nazirliyinə məlumat verilir".

Nazirlikdən həmçinin o da bildirlib ki, dövlət orqanları tərəfindən müsadirə edilmiş, sahibsiz qalmış və vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçmiş əmlakın və dəfinələrin satışından daxilolmalar Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın " Dövlət əmlakının satışından daxilolmalar" maddəsi üzrə dövlət büdcəsinin gəlirlərinə aid edilir: ""Büdcə sistemi haqqında" qanuna əsasən növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanunla funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində xərclərin məbləği təsdiq olunur. Eyni zamanda bildiririk ki, hər il üzrə dövlət büdcəsinin gəlirləri və xərcləri Qanunla təsdiq edilir və qeyd olunan mənbələrdən daxilolmalar da dövlət büdcəsinin icrasına dair qanunlarda öz əksini tapır".

✍ ***Sevinc***

# Kəşmir xalqının referendum istəyi

## Müsahib

***B**ir dəfə məşhur diplomatlardan biri söhbət əsnasında mənə dedi ki, Kəşmir münaqişəsi həll olunsa, Asiyadakı mövcud problemlərin hamısı aradan qalxacaq. Nə yazıq ki, Kəşmir münaqişəsinin həlli yolunun, 70 il olduğu kimi, hələ də sonu görünmür. Hindistan bu torpaqları öz ərazisi hesab edir, Pakistan və bir sıra dövlətlər isə əksinə, Kəşmir xalqının öz müqəddəratını təyinetmə haqqı olduğuna israr edirlər. Bu müstəvidə BMT Təhlükəsizlik Şurasının qətnaməsi də mövcuddur.*

Qətnaməyə görə Kəşmirdə tam azad və heç bir tərəfin təsiri olmadan referendum keçirilməli, kəşmirlilər öz gələcəklərini necə görürlərsə, ona da səs verməlidir - istəsələr müstəqil olarlar, istəyərlər Hindistanla qalarlar, yaxud da Pakistana birləşərlər - seçim özlərinindir. Amma Hindistan BMT TŞ-nın bu tələbinin reallaşmasına şərait yaratmır. Ümumiyyətlə, bu gün Kəşmirdə vəziyyət necədir? İnsanlar necə yaşayır? Niyə dünyanın hər yerində kəşmirlilərin harayı fələstinlilərin, ukraynalıların, gürcülərin və başqaları kimi ucadan səslənmir? Niyə Kəşmir faciəsinin acı nəticələri hər ilin bəlli günündə Pakistanın xarici ölkələrdəki səfirliklərində bağlı qapılar arxasında keçirilən tədbirlər müstəvisindən küçə və meydanlara çıxarılmır? Niyə xarici medianın birbaşa kəşmirli siyasətçilərə çıxışı yox səviyyəsindədir? Bütün bu suallara Azad Cammu və Kəşmir Respublikasının Prezidenti Sərdar Məsud Xan hafta.az-a eksklüziv müsahibəsində cavab verməyə çalışıb.

Cənab Prezident müsahibəyə 70 ildən artıqdır davam edən Kəşmir probleminin həllinə mane olan məsələlərə aydınlıq gətirməklə başladı...

- 1947-ci ildən bəri Cammu və Kəşmir xalqı, eləcə də Pakistan dövləti BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Kəşmir xalqının iradəsinin müəyyənləşdirilməsi üçün referendumun keçirilməsini istəyir. Bu, Kəşmir xalqının istəklərini müəyyən etmək üçün ən demokratik və dinc yoldur. Hindistan BMT-nin belə bir səsverməni keçirməsinə hər vəchlə mane olur.

Hindistan kəşmirlilərin timsalında bütöv bir xalqın istəyinə zidd olaraq Cammu və Kəşmir əyalətinin bir hissəsini hərbi təcavüz yolu ilə işğal etdi. Bununla kifayətlənmədi, 1948-ci ildə Azad Cammu və Kəşmir, eləcə də Gilgit-Baltistandan ibarət tarixi Kəşmir ərazisini geri qaytarmaq üçün BMT Təhlükəsizlik Şurasında məsələ qaldırdı, amma məqsədinə nail ola bilmədi. BMT Təhlükəsizlik Şurası, özünün nəzarəti altında Cammu və Kəşmirdə keçirilməsi nəzərdə tutulan ədalətli bir referendum formulu hazırladı.

Məlum olduğu kimi, Hindistan müxtəlif bəhanələrlə referendumun keçirilməsinə imkan vermədi və BMT-nin bu prosesdə rolunu məqsədli şəkildə sarsıtmağa başladı və beləcə, 70 ildir ki, diplomatik prosesi gecikdirir. Bu hələ hamısı deyil. Hindistanın işğalçı hərbi qüvvələri və seçdiyi işğalçı idarəetmə orqanları bu müddət ərzində Cammu və Kəşmir xalqına qarşı dözülməz əzablar verir. Bu müddət ərzində yarım milyondan çox insan öldürülüb, təxminən bir milyon insan yurd-yuvasından köçkün düşüb, minlərlə qadın təcavüzə məruz qalıb, minlərlə insan şikəst olub, 14 mindən artıq insan həbsxanalarda və ümumi cəza düşərgələrində çürüyür. Bu gün dünyada ən çox zülmə məruz qalmış insan məhz Kəşmirdə yaşayır.

***- Kəşmir əslində, təkcə Pakistanla Hindistan deyil, həm də üçüncü tərəf olan Çin arasında bölünüb. Nədənsə, Çinin adı heç vaxt bu münaqişədə hallandırılmır. Niyə, səbəb nədir?***

- Kəşmir münaqişəsində üç tərəf var - Pakistan, Hindistan və bir də Cammu və Kəşmir xalqı. Hətta deyərdim ki, Cammu və Kəşmir xalqı əsas partiyadır, çünki məhz o öz siyasi gələcəyini seçməlidir. Aksay-Çin bölgəsinə gəldikdə, Çin dövləti ilə Hindistan arasında mübahisə mövcuddur. Bu, Hindistan Aksay da daxil omaqla, bütün Cammu və Kəşmiri öz torpaqları hesab edir. Kəşmir və Pakistan isə əksinə, Dehlinin mövqeyinə qarşı çıxır. Çin tərəfi də tarixi dəlil-sübutlara istinad edərək Hindistanla razılaşmır. Bu məsələ zaman-zaman tərəflər arasında ciddi mübahisəyə də çevrilir. Məsələn, 1962-ci ildə Hindistanla Çin arasında bu bölgə uğrunda müharibə baş verib. Əlbəttə, bu gün müharibə vəziyyəti olmasa da, heç də problemin aradan qalxdığını deyə bilmərik. Faktiki Nəzarət Xətti (LOAC) boyunca qarşıdurmalar hər zaman baş verir. Bunlardan ən qorxulusunu - 2020-ci ildə yaşanmış silahlı qarşıdurmanı müsal göstərə bilərik. Bu hadisə Kəşmir mübahisəsi kontekstində beynəlxalq media tərəfindən geniş şəkildə işıqlandırılmışdı.

***- Ərazisini və əhalisini göz önünə gətirərsək, Kəşmirin neçə faizi azad və faktiki olaraq müstəqil hökumət statusuna malikdir, neçə faizi Hindistanın, neçə faizi Çinin nəzarətindədir? Məncə, Azad Kəşmirlə yanaşı, Kəşmirin şimal dağlıq hissəsi də Pakistan ordusunun nəzarəti altında qalan ayrı bir bölgədir. Bu məsələyə aydınlıq gətirərdiniz.***

- Azad Kəşmir və Gilgit-Baltistanın sahəsi 85846 kvadratkilometr, Hindistanın işğal etdiyi Cammu və Kəşmirin ərazisi təxminən 101338 kvadratkilometr, Çinin nəzarətindəki Aksay bölgəsinin ərazisi isə 38 min kvadratkilometrdir. Yəni Kəşmirin ümumi sahəsi 225 min kvadratkilometrdən bir qədər çoxdur. Əslində Azad Kəşmir və Gilgit-Baltistan ərazisi heç də Pakistan ordusunun nəzarətində olan ayrıca ərazi vahidi deyil. Hər iki bölgəyə Azad Kəşmirin prezidenti və baş nazirinin rəhbərlik etdiyi mülki hökumət nəzarət edir. Siz deyən Gilgit-Baltistanda qubernator və baş nazir var. Pakistan ordusunun bölmələri isə təhlükəsizliyi təmin eləmək üçün Nəzarət Xətti (LOC) boyunca yerləşdirilib.

> *Referendum xalqımızın istəklərini müəyyən etmək üçün ən demokratik yoldur*




***- Hindistanın nəzarətində olan Kəşmirdə baş verən etiraz aksiyalarından, bəzən aparılan həbslərdən və digər xoşagəlməzliklərdən bəhs edən videoları görürük və eşidirik. Bununla belə, Azad Kəşmir xalqının, eləcə də Çinin nəzarətində qalmış Kəşmirdə yaşayan insanların həyatından bəhs edən sənədli filmlərin nümayiş etdirilməməsi çox maraqlıdır. Bununla bağlı fikrinizi öyrənək. Şəxsən mənim fikrim aydındır: Azad Kəşmir xalqının həyat səviyyəsini, təhsilini, dünyagörüşünü, şəxsi azadlıqlarını, iqtisadi və sosial inkişafını bilmək istərdim...***

- Ümumiyyətlə yanaşanda, Azad Kəşmirdə həyat standartları çox yüksəkdir. Adambaşına düşən gəlirin səviyyəsi yüksəkdir və Pakistanda ən yüksək savadlılıq dərəcəsi məhz bizim Azad Cammu və Kəşmir ərazisindədir. Bu gün Kəşmirdə yeni texnologiyalar da daxil olmaqla qabaqcıl fənlər üzrə ali təhsil verən beş dövlət universiteti fəaliyyət göstərir. Yaxın keçmişdə iqtisadi tərəqqi infrastrukturun inkişafı, su-elektrik enerjisi istehsalı, turizmin təşviqi, bütövlükdə sənayenin artımı və kənd təsərrüfatı sahəsində innovasiyalara diqqət yetirməklə başladı. Eyni zamanda, Azad Kəşmir səhiyyə sisteminin yenilənməsi, gender bərabərliyi və yoxsulluğun aradan qaldırılması kimi insan inkişafı göstəricilərini yaxşılaşdırmağa çalışır. Vətəndaş azadlıqları və əsas azadlıqlar təmin edilir. O cümlədən, sizin də maraq sahəniz olan media tam azaddır. Demokratik prosesin davamlılığını təmin etmək üçün mütəmadi olaraq seçkilər keçirilir. Elə bu yaxınlarda yeni hökumətin qurulması ilə nəticələnmiş azad və ədalətli seçkilər keçirilib ki, nəticəsi çox şəffaf olub.

***- Uzun illərdir, Kəşmir münaqişəsinin həlli üçün bəzi cəhdlər olub. Hətta bəzən elə şərait yaranıb ki, münaqişənin həll olunmaq üzrə olduğunu düşünmüşük. Göründüyü kimi, münaqişə bütün acı həqiqətləri ilə birlikdə qalır. Sizə elə gəlmirmi ki, bu problemin olduğu kimi qalmasında maraqlı olan xarici qüvvələr var?***

- Kəşmir münaqişəsinin həll olunmamasının səbəbkarı Hindistandır. Başqa ölkələrin də bu günahda payı var. Hindistanı Çinə qarşı strateji müttəfiq hesab edən Qərb blokuna daxil olan bəzi güclü dövlətlər də Dehlinin Cammu və Kəşmirdəki işğalını davam etdirməsinə dəstək verir. Qərb ölkələri bu gün Ukraynada və dünyanın digər yerlərində insan haqları mövzusunda fəaldırlar, lakin diqqəti Hindistanın işğal etdiyi Cammu və Kəşmirdəki vəziyyətə yönəldikdə gözlərini yumub susurlar. Bütün bunlar qlobal nizamımızı pozan ikili standartlardır. Məhz bu yanaşma hindliləri onlara aid olmayan bölgəyə nəzarəti qorumağa təşviq etdi. İkibaşlı siyasət həm də Hindistana kəşmirlilərin azadlıq və öz müqəddəratını təyin etmək müstəvisində ucaltdıqları səsi susdurmaq üçün güc tətbiqinə ilham verdi. İkibaşlı siyasət onların törətdiyi əməllərinə görə cəzasız qalmalarına şərait yaradır.



**Sərdar Məsud Xan,**
Azad Cammu və Kəşmir Respublikasının Prezidenti

***- Niyə bütün dünyada yaşayan kəşmirlilər öz azadlıqları və hüquqları uğrunda mübarizə üçün açıq şəkildə siyasi təbliğat aparmırlar? Niyə kəşmirlilər fərqli ölkələrdə etiraz aksiyaları keçirmirlər, mediada görünmürlər, axı Pakistan hökuməti kəşmirlərin hüquqlarını təkbaşına qorumaqda çətinlik çəkir. Mən şəxsən bir çox kəşmirli ictimai xadimdən müsahibə almağa çalışmışam, amma onlar nəinki problemlərini mətbuata açmaqdan çəkinirlər, hətta belə demək mümkündürsə, danışmaqdan qorxurlar. Məsələn, sonuncu dəfə Məhbubə Müftiyə müraciət etdim, amma o, susdu. Eşitdiyimə görə, xanım Müfti atası kimi kəşmirlilərin hüquqları uğrunda mübarizə aparır. Kəşmirlilər niyə danışmırlar, nədən qorxurlar, nədən ehtiyyatlanırlar?***

- Cammu və Kəşmir xalqının öz müqəddəratını təyin etmə hüququ, xüsusilə 2019-cu il avqustun 5-dən sonra Hindistanın işğalı altında olan Cammu və Kəşmiri hind ordusu tərəfindən yenidən işğal edilməsi torpaqlarımızda beynəlxalq səviyyəli azadlıq hərəkatını formalaşdırdı. O vaxtdan bəri Hindistan, işğal altındakı ərazinin kommunal və demoqrafik tərkibini dəyişdirmək üçün, qanunsuz şəkildə milyonlarla hindlini torpaqlarımızda məskunlaşdırıb. Dünyanın hər yerində - Şimali Amerikada, Qərbi Avropada, Yaxın Şərqdə, Şərqi Asiyada - kəşmirlilər və pakistanlılar Hindistanın vəhşiliklərinə etiraz etdilər. İşğal olunmuş ərazilərdəki qorxunc vəziyyəti xarici dövlətlərin ictimaiyyətinə çatdırmaq üçün onların parlamentlərinin, hökumətinin və vətəndaş cəmiyyətininin diqqətini bu məsələyə cəlb etdilər. Həm də BMT, eləcə də bu təşkilatın İnsan Haqları Şurası ilə birlikdə kəşmirlilərə ədalət axtarıblar. İOJK-da (İndia Occupied Jammu and Kashmir - V.T.), mərhum Seyid Əli Gilani, Asiya İndrabi, Yasin Malik və Şabbir Şah kimi əsl Kəşmir liderləri həmişə həbsdə olub və onlara xarici mediaya danışmaq qadağan edilib. Məhbubə Müftiyə gəlincə, o, Hindistan tərəfdarı siyasətçidir. Buna baxmayaraq, Hindistan hakimiyyəti tərəfindən onun da danışmasına icazə verilmir. Məhbubə Müfti kimi liderlərlə danışmağa çalışmaqla əslində yanlış qapını döyürsünüz. O və onun kimi bir çoxları nəinki kəşmirlilərin azadlıq çağırışına səs vermir, hətta xalqımıza qarşı törədilən cinayətlərə göz yumurlar. Bununla da Hindistanın kəşmirlilərə qarşı etdiyi cinayətlərin ortağına çevriliblər. Kəşmirin əsl azadlıq liderləri ilə hazırda xaricdə yaşayan İOJK vasitəsilə əlaqə saxlaya bilərsiniz.

***- Siz mənimlə razılaşmırsınız, amma şəxsi qənaətim belədir ki, nəinki adi kəşmirlilər, hətta Azad Kəşmirin yerli hökuməti də dünya mediasından çox təcrid olunmuş vəziyyətdədir. Azad Kəşmirin yerli hökumətinin olduğunu çox adam bilmir. Xarici mətbuat olaraq niyə internet vasitəsi ilə sizlərlə əlaqə saxlaya, sual göndərə və cavab ala bilmirik?***

- Bu məsələdə sizinlə müəyyən mənada razı deyiləm. Azad Kəşmirin liderləri beynəlxalq media ilə tez-tez əlaqə saxlayırlar. Şəxsən mən, Azad Cammu və Kəşmir prezidenti olaraq işlədiyim müddətdə - 2016-cı ildən üzübəri aparıcı qəzetlərə, xəbər agentliklərinə və televiziya kanallarına müntəzəm müsahibələr vermişəm. Bəli, bir məsələdə sizinlə tam razıyam ki, özümüzü tanıtmaq və kəşmirlilərin haqq səsini dünyaya çatdırmaq üçün daha çox qarşılıqlı əlaqə qurulmalıdır. Yeri gəlmişkən, bizim Azad Kəşmirdə yerli hökumətimiz var. 1947-ci il oktyabrın 24-də əsası qoyulmuş dövlətimiz Hindistanın işğalı altındakı Kəşmirin azadlığı üçün mübarizə aparır və bu missiya bu günədək davam edir.

✍ ***Vüsal***

# Zəfərə aparan tarixi qərar

## Siyasi baxış

***1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində Azərbaycan ərazisinin, demək olar ki, beşdəbiri işğal olunmuşdur. İşğal bu ərazilərdən, təxminən, bir milyon azərbaycanlının kütləvi etnik təmizlənməsi və digər ağır cinayətlərin törədilməsi ilə müşayiət olundu. 10 noyabr 2020-ci ilin xəbər başlıqlarında deyilirdi: "Azərbaycanla Ermənistan arasında altı həftə davam edən döyüşlərdən sonra iki münaqişə tərəfi arasında müqavilə imzalandı. Azərbaycan böyük qələbə qazandı". Əsl qələbə30 illik Vətən həsrəti ilə yanan xalqımızın Ermənistanın işğalına son qoyaraq öz ana vətənlərinə qovuşması idi.***



**Məzahir Əfəndiyev,**
Milli Məclisin deputatı

Azərbaycan Respublikası, nəhayət, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etdi. Məğlub Ermənistanın kapitulyasiya aktı Dağlıq Qarabağ bölgəsinin ikinci ən böyük tarixi şəhəri olan Şuşanın Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilməsindən qısa müddət sonra imzalandı. Ermənistanın baş naziri Nikol Paşinyanın qeyd etdiyi kimi, Ermənistanın Şanlı Ordumuz qarşısında məğlubiyyəti qəbul etməkdən başqa çıxış yolu yox idi. Buna görə də işğalçı tərəf məğlub olduğunu etiraf etdi və münaqişə rəsmi olaraq dayandırıldı.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Azərbaycana qarşı güc tətbiqini və ərazilərinin işğalını pisləyən, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını təsdiq edən 822, 853, 874 və 884 (1993) nömrəli qətnamələri qəbul etdi. Təhlükəsizlik Şurası həmin qətnamələrdə Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Digər beynəlxalq təşkilatlar da eyni mövqedən çıxış etdilər, lakin uzun illər ərzində Ermənistan beynəlxalq birliyin bu mövqeyinə məhəl qoymayaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarını işğal altında saxlamaqda davam edirdi. 2019-cu ildə Ermənistanın müdafiə naziri ”yeni ərazilər üçün yeni müharibə” adlı yeni təcavüzkar iddiasını səsləndirmişdir.

Üstəlik, ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi səylərinə dəstək olmaq üçünFransa, Rusiya Federasiyası və ABŞ-ın həmsədrliyi ilə Minsk Qrupu yaradıldı.

**İstər müharibə zamanı, istərsə də müharibədən sonra Prezident İlham Əliyev münaqişənin dinc yolla nizamlanmasında ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyini dəfələrlə qeyd etmişdir.**

Bu, bizə Qarabağ münaqişəsi ilə bağlı məlum 4 qətnaməni (822, 853, 874 və 884) təkbaşına həyata keçirərək, Azərbaycanın yalnız ölkəmiz üçün deyil, region və bütün dünya üçün tarixi əhəmiyyətli işə imza atdığını iddia etməyə əsas verir. 30 illik Azərbaycan torpaqlarının işğalı və dünya birliyi tərəfindən görülməyən ədalətsizlik 2020-ci ilin dekabr ayının ilk günündə sona çatdı. Hazırda Azərbaycan Hökuməti ərazilərin bərpası və köçkün mülki əhalinin geri qaytarılması prosedurunun gücləndirilməsini təmin edəcək sistem üzərində işləyir. Lakin, işğal müddətində Ermənistanın azad edilmiş ərazilərimizə vurduğu ziyanı bərpa etmək uzun və çətin proses olacaqdır.

> *Bölgədəki son hadisələr Azərbaycanın qalib olduğunu və artıq regionda yeni reallıqların mövcud olduğunu açıq-aşkar göstərir*

Ərazilərimizin 27 il ermənilər tərəfindən qanunsuz olaraq işğal edilməsi əsrlər boyu qoruyub saxladığımız dini obyektlərin, muzeylərin, teatrların, kilsələrin, məktəblərin, qədim mağaraların və hətta şəxsi evlərin dağıdılması ilə nəticələndi. Ağdam, Qubadlı, Füzuli, Zəngilan, Cəbrayıl kimi şəhərlər Xirosima tipli xarabalıqlara çevrildi. Kənd təsərrüfatı torpaqları tam yararsız hala düşdü. Ermənilərin meşələri kütləvi talan etməsi də ”eko-terror”la nəticələndi. Azərbaycanın tarixi mağaraları və qazıntı yerləri dağıdıldı.

Ermənistanın Baş naziri Nikol Paşinyanın ”Artsax Ermənistandır və nöqtə” çirkli iddiası nəhayət bir yalan kimi ortaya çıxdı. Qələbədən sonra təkcə Azərbaycan Ordusu deyil, bütün dünya Ermənistanın iddia etdiyi ərazi olan Qarabağın zəngin və ən firavan bölgələrinin Ermənistan tərəfindən necə məhv edildiyinin şahidi oldu. Azərbaycan Hökumətinin nümayəndələri, beynəlxalq mətbuat və Bakıda yerləşən 40-dan çox səfirliyin diplomatları bu dəhşətli ”müharibə cinayətinin” sübutlarını ortaya qoydular.

**Erməni işğalı təkcə Qarabağı deyil, Azərbaycanın ətraf mühitinin və insanların illərlə əziyyət çəkdiyi bütün qonşu rayonları da əhatə edirdi. Belə ki, 3 oktyabr 2020-ci il tarixdə Suqovuşan Azərbaycan Ordusu tərəfindən azad edildikdən sonra 30 ilə yaxın bir müddət ərzində susuz qalan Tərtər çayı yenidən bölgəyə həyat bəxş etməyə başladı.**

Azərbaycanın Cənubi Qafqazda sülhün və sabitliyin möhkəmləndirilməsinə yönəlmiş faydalı, yeni bir regional əməkdaşlıq qurmaq səylərinə baxmayaraq, Ermənistan beynəlxalq humanitar hüquqdan və üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməmişdir.

Xüsusi narahatlıq doğuran məsələ Ermənistanın son zamanlar azad edilmiş ərazilərdə minalanmış ərazilərin xəritələrini beynəlxalq humanitar hüquqa uyğun olaraq Azərbaycan tərəfinə təqdim etməkdən imtina etməsidir.

Birləşmiş Millətlər Təşkilatının Minalardan Təmizləmə Xidməti (UNMAS) mina əməliyyatlarının münaqişədən sonra yenidən qurulmasına, sülhün və davamlı inkişafın təmin edilməsinə imkan verdiyinə dair dəlilləri vurğulayır, eyni zamanda məlumat çatışmazlıqları və onun törədə biləcəyi ciddi probelemləri də diqqətə çatdırır. Təxminən, iki il yarım davam edəcək təmizlik işlərindən sonra bölgə yenidən məskunlaşmaq üçün yararlı bir vəziyyətə gətirilə bilər. 2021-ci ilin may ayına qədər ”hərbi bölgə” elan edilən Tərtər Prezident İlham Əliyevin bölgəyə səfərindən sonra ”mülki” statusu almışdır. Türkiyə, beynəlxalq təşkilatlar, ökəmizdə akkreditə olunmuş beynəlxalq və regional təşkilatların bu əməkdaşlığın qurulmasında və dayanıqlı edilməsində rolu isə əvəzsiz olacaqdır.

Bu baxımdan dünyanın nüfuzlu beynəlxalq təşkilatlarından sayılan, münaqişələrin qarşısının alınması və sülh dialoqunda hər zaman mühüm rol oynayan Avropa Birliyinin bu gün Cənubi Qafqaz regionu ilə əlaqələri mühüm bir önəm daşımaqdadır. Bu, regiona səfəri zamanı Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyinin Azərbaycanda keçirdiyi görüşlərində səsləndirdiyi fikirlərdə də öz əksini tapmışdır.

Daha sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel regiona səfəri çərçivəsində Azərbaycanın Avropa üçün önəmini, enerji təhlükəsizliyinə verdiyi töhfəni xüsusi vurğulamışdır. Onun görüşlərin nəticəsi olaraq birgə keçirilən mətbuat konfransında "Avropa İttifaqı Cənubi Qafqazda sülhün bərqərar olunmasında maraqlıdır" sözləri regionda sülh, əməkdaşlıq və quruculuqda maraqlı olan ölkəmizin mənafeyi ilə üst-üstə düşür.

Azərbaycan üçün ən mühüm nailiyyətlərdən biri Qarabağın incisi kimi tanınan və bölgənin mədəniyyət mərkəzi olan Şuşanın azad edilməsidir. Beləliklə, qələbədən dərhal sonra Prezident İlham Əliyev onu bütün bölgənin ”Mədəni paytaxtı” elan etdi. 8 may 1992-ci ildə Ermənistan tərəfindən ”qırğın” və qanunsuz olaraq ”ələ keçirilən” Şuşa artıq ”mədəni müxtəlifliyin” və ”sülh mübarizəsinin simvolu” olaraq öz inkişaf yoluna davam edəcəkdir.

**Cənab Prezident tərəfindən verilən tapşırıqlara əsasən hazırlanan Qarabağın İnkişaf Strategiyası, Qarabağ Dirçəliş Fondu, dövlət proqramları, İlham Əliyevin Qarabağa səfərləri və infrastrukturla bağlı başlanılan işlər artıq Qarabağın inkişafının yüksək səviyyədə təşkil olunacağına inamı daha da artırır.**

İnşa ediləcək yeni obyektlərin təməllərinin qoyulması, habelə Şuşanın abadlaşdırılmasının sürətlə davam etdirilməsi artıq 30 ildir ki, didərgin düşmüş sakinlərin doğma şəhərinə tezliklə qayıtmasını təmin edəcək, eyni zamanda Şuşanın ölkəmizin mədəniyyət paytaxtı, həmçinin YUNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilmiş tarixi-memarlıq qoruğuna sahib olaraq burada daha böyük qlobal tədbirlərin keçirilməsinə şərait yaradacaqdır.

Xüsusi qeyd olunmalıdır ki, Azərbaycanda keçirilən mədəniyyətlərarası dünya forumları, YUNESKO ilə mədəni əməkdaşlıq, beynəlxalq konvensiyaların ölkəmizdə icrası, milli mədəniyyətimizin dünyaya tanıdılmasında göstərilən səylər əsrlərdən bəri dünyanın mədəni irsinə öz miraslarını vermiş multikultural Azərbaycan xalqının bu gün də mədəni diplomatiyaya verdiyi dəyərin göstəricisidir. Bu gün doğma Qarabağımızda, Şuşada bu irsin qorunub saxlanılması tək Azərbaycanın deyil, UNESCO və üzv dövlətlərin də öhdəliyidir. Azərbaycan, həmçinin BMT-nin qəbul olunmuş məlum dörd qətnaməsini təkbaşına icra edərək regionda sülhü və əməkdaşlıq imkanlarını bərpa etmişdir. Bununla yanaşı, əfsuslar olsun ki, Cənab Prezidentin də söylədiyi kimi, "Biz UNESCO-nu, demək olar ki, 30 ilə yaxındır gözləyirik".

Bölgədəki son hadisələr Azərbaycanın qalib olduğunu və artıq regionda yeni reallıqların mövcud olduğunu açıq-aşkar göstərir. Ermənistan indi Azərbaycanın hüquqi və qanuni iddialarını əks etdirən yeni reallıqları yerində qəbul etməli olacaq. Beləliklə, sülhü və təhlükəsizliyi qorumağın yeganə yolu region dövlətlərinin qarşılıqlı əməkdaşlığının daha da güclənməsindən keçir.

# Şuşada "Qarabağ atları" adlı sərgi təşkil edəcəm

## Söhbət



**Dase Ştrausan,**
latviyalı rəssam

***Sentyabrın 24-dən 28-dək Bakıda çox maraqlı rəsm sərgisi təşkil olundu. Latviyanın ölkəmizdəki Səfirliyinin təşkilatçılığı ilə açılan "Qarabağ atları" adlı sərgidə məşhur latviyalı rəssam, xanım Dase Ştrausanın rəsm əsərləri sərgilənib. Çox maraqlıdır, məhz Qarabağ atlarından bəhs etmək, daha doğrusu, həyatının önəmli illərini bu əsərləri yaratmaq üçün xərcləyən xanım Ştrausada Azərbaycanın mədəni dəyərlərinə maraq və sevgi hardandır? Özü də elə bir həssas günlərdə - Azərbaycan torpaqlarını 30 illik işğaldan qurtaran 44 günlük Vətən müharibəsinin birinci ildönümündə. Bəli, latviyalı rəssam xanım "Qarabağ atları" adlı ecazkar rəsm sərgisi ilə, igidlik dastanı yazdığımız bu möhtəşəm günlərdə Azərbaycan xalqını təbrik etmiş oldu... Gəlin xanım Dase Ştrausanın "Həftə içi"nə eksklüziv müsahibəsinə birlikdə nəzər salaq:***

- Bakıda məlum sərgini təşkil etmək təşəbbüsü Latviyanın Azərbaycandakı Səfirliyindən gəlib. Təbii ki, mən də məmnuniyyətlə razılaşdım. İki il əvvəl, əvvəllər 3 il yaşadığım Azərbaycanı tərk edərək Bakıda böyük bir rəsm kolleksiyası buraxdım. İlk dəfə 2018-ci ildə Bakıdakı Muzey Mərkəzində rəsm əsərlərimdən ibarət sərgim keçirilmişdi. Amma bu dəfəki sərgidə 10 yeni rəsm əsərim də sərgilənib.

***- Qarabağ atlarını harada görmüsünüz? Maraqlıdır, sizcə, onlar hansı xüsusiyyətlərinə, bəlkə də görünüşlərinə görə digər at cinslərindən fərqlənir?***

- Qarabağ atlarını və onları bəsləyən sahiblərini ilk dəfə Bakıda görmüşəm. Heyvanların xüsusiyyətlərini soruşursunuz, zootexniki terminlərə girmədən deyə bilərəm ki, onlar həqiqətən də gözəl, nəcib, oynaq, özünəməxsus rəngli və qızılı parıltılı atlardır. Bu nəcib heyvanlarla təmasda olduğum üçün deyə bilərəm ki, onların xasiyyəti də çox xoşdur. Bu atlar onlarla yaxşı rəftar edən və qayğılarına qalan hər bir insana asanlıqla bağlanırlar.

***- Sərgi, adından da göründüyü kimi, atlara həsr olunub, çünki orada çox sayda at rəsmini seyr etdik. Ümumiyyətlə, rəssam olaraq siz daha çox hansı janrda rəsmlər çəkirsiniz? Sadəcə at, yoxsa başqa, məsələn, təbiət rəsmləri, natürmort, bəlkə insan şəkilləri...***

- Əsasən, atlar, bəzən digər heyvanlar da işimin əsas mövzusu olur, yəni mən animistəm. Rəsm çəkmək üçün atlarla tanış olur və bu mənə ilham verir. Belə demək olarsa, atlar mənim ilham mənbəyimdir. Xüsusilə, hərəkətdə olan atların fotoşəkillərini çəkməyi də çox sevirəm. Fotosessiyalar edirəm, sonra isə həmin şəkillərə baxaraq tablolar yaradıram.

***- Bugünədək, təxminən, neçə rəsm əsəri yaratmısınız və neçə ölkədə sərgiləriniz açılıb? Siz öz rəsmlərinizdə əvvəllər də Azərbaycandan bəhs etmisiniz, yoxsa Qarabağ atları ilk belə müraciətdir? Ümumiyyətlə, Azərbaycanla bağlı yeni bir rəsm sərgisi təşkil etmək istəsəydiniz, daha çox hansı janrlara üstünlük verərdiniz?***

- Yaratdığım əsərlərin təxmini sayını dəqiqliyi ilə deyə bilmərəm. Yəqin ki, yüzlərlə belə əsərim var. Rəssamlıq peşəsini çox sevirəm. Rəsm çəkərkən, "Görəsən, əla alınacaqmı?" deyə təlaşlanıram. Əsər hazır olduqdan sonra təlaş və maraq öz-özlüyündə itib gedir. Bəzən bir müddət sonra kiminsə evində və ya başqa bir təsadüfi yerdə çəkdiyim rəsm əsərini görmək daha maraqlıdır. Sərgilərim çox keçirilib - Latviyada, Litvada, Almaniyada, Finlandiyada, Rusiyada və artıq ikinci dəfədir ki, Azərbaycanda. Çox ümid edirəm, Azərbaycanda eynilə at mövzusunda daha bir neçə sərgim olacaq. Onu da deyim ki, atlar da onları yetişdirib bəsləyən milləti xarakterizə edəbiləcək mədəni irsin böyük hissəsidir. Bu gün nadir hallarda rast gəlinən əsl Qarabağ atına baxanda başa düşmək olar ki, belə gözəlliyi yalnız atçılıq mədəniyyətini və at cinsinin qədim, nəcib mənşəyini dərindən bilən ağıllı, alicənab insanlar yarada bilər.

> "
> *Bu atlar onlarla yaxşı rəftar edən və qayğılarına qalan hər bir insana asanlıqla bağlanırlar*



***- Siz Bakıda yaşadığınız vaxtlar Qarabağ torpaqları Ermənistan tərəfindən işğal olunmuşdu və güman edirəm ki, bu səbəbdən də siz o bölgələrdə olmamısınız. İndi həmin ərazilər işaldan azad edilib və hətta Şuşada mədəniyyət tədbirləri təşkil olunmağa başlayıb. Şuşada, Ağdamda, digər azad olunmuş bölgələrimizdə olmaq, o yerlərin gözəlliyini öz gözlərinizlə görüb rəsmlər yaratmaq istərdinizmi?***

- Əlbəttə, Azərbaycanda yaşadığım vaxtlar inanırdım ki, yaxın gələcəkdə Qarabağ torpaqları azad ediləcək və Şuşaya getmək, bu gözəl şəhəri görmək üçün fürsət yaranacaq. Oralar Qarabağ atlarının çiçəklənmə dövrünü yaşadığı yerdir. Əlbəttə, çox təəssüf edirəm ki, bu gün əsl cins Qarabağ atlarının sayı azalıb, demək olar ki, barmaqla sayılacaq qədər azdırlar. Məncə, bu nadir cins atlara belə münasibət davam edərsə, tezliklə nəsilləri kəsilə bilər. Ümid edirəm ki, bu olmayacaq, qızılı at ilxıları yenə də Qarabağda otlayacaq və bunu öz gözlərimlə görə biləcəyəm. Məncə, Azərbaycan atlarından bəhs edən muzey yaradılmalıdır və orada yalnız bu nəcib heyvanların rəsmləri deyil, ölkənizdə atyetişdirmə ənənəsindən bəhs edən zəngin və maraqlı materiallar sərgilənə bilər. Düşünürəm ki, niyə belə bir muzey məhz Şuşada olmamalıdır? Atlara sevgi yalnız Azərbaycanın qüruru olduqları üçün deyil, həm də sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı, Qarabağ atlarına xüsusi diqqət yetirmiş məşhur şairə Xurşudbanu Natəvana hörmətdən irəli gəlir. Bu atlar hətta Parisdə keçirilmiş yarışda qızıl medal da qazanıb.

***- Yeri gəlmişkən, Qarabağ atlarından bəhs edən rəsm sərgisini gələcəkdə elə Qarabağ torpaqlarında - Şuşada, Ağdamda da təşkil etmək istərdinizmi?***

- Əlbəttə. Ümid edirəm, Latviyanın Azərbaycandakı səfirliyi ilə birlikdə Şuşada rəsm əsərlərimdən ibarət sərgi təşkil edə biləcəyəm. Buna ürəkdən sevinərdim...

✍ ***Vüsal***

## Müsahib

***Azərbaycan adına Alyans Partiyasının sədri Abutalıb Səmədov hafta.az-a müsahibə verib. Müsahibəni sizə təqdim edirik:***



**Abutalıb Səmədov,**
Azərbaycan adına Alyans Partiyasının sədri

***- Abutalıb müəllim, bir il öncə - 27 sentyabrda müharibənin başlanmasını zəruri edən amillər nə idi və o dönəmdə dünyanın siyasi vəziyyəti necə idi?***

- 2020-ci ilin 12 iyulunda Tovuz istiqamətindən atəşkəsi pozdular. Onda onların dərsini lazımi səviyyədə vermədik, yəqin ki, bunu bilərəkdən etdik. Bu zaman belə davrandıq ki, Azərbaycanın potensialını tam bilməsinlər. Sonra avqustda diversiya qrupları göndərdilər, onları zərərsizləşdirdik. Sentyabrın 27-si səhər tezdən yenidən düşmən tərəfindən Azərbaycan mövqelərinə atəş başlandı. Bundan sonra Ali Baş Komandan qərar verdi ki, bunların dərsi verilməlidir. Bununla da əks-hücum əməliyyatı başladı. Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan əks-hücum əməliyyatına başladı və elan etdi ki, BMT TŞ-nin 4 qətnaməsini icra etmək əzmindədir. BMT TŞ bildirir ki, bu torpaqlar azad olunmalıdır. Erməni silahlıları 7 rayondan çıxarılmalıdır. Azərbaycan öz hüququndan istifadə edərək torpaqlarını işğaldan azad etməyə başladı, ədalətli bir əks-hücuma keçdi. Döyüşün ilk anlarından yüksəklikləri ələ keçirməyə başladıq. Bu əməliyyatlar 44 gün ərzində bir dəfə də dayanmadı. Dünya da dayanmadı. Birinci gündən bizə hücumlar başlandı.

BMT-nin Baş katibi cənab Prezidentlə danışdı.

# Cənab Prezident bunu bacardı

Üç dəfə Makron, 3 dəfə Merkel zəng etdi və hər tərəfdən tələb var idi: Azərbaycan Ordusu dayanmalıdır. Rusiya kanallarında olan debatlarda onlara başa sala bilmirdik ki, hərbi əməliyyatlar Azərbaycan ərazisində keçirilir. Biz işğal olunmuş yeddi rayonumuzu geri almaq istəyirik. Dünya bu dərəcədə çaşmışdı və ya özünü çaşqınlığa vurmuşdu. Azərbaycan Prezidentinə bax, belə təzyiqlər başlamışdı. Cənab Prezident dəfələrlə söylədi ki, dayan deyirsiniz, ona niyə çıx demirsiniz? Yaxud o, hücuma keçəndə niyə "dayan" demirdiniz? Ermənistana bu cür demirdilər. Azərbaycan ədalətli şəkildə öz ərazilərini azad edirdi. Bütün dünya Azərbaycana "dayan" deyirdi. Nəhayət, oktyabrın 1-də Rusiyanın, ABŞ-ın, Fransanın dövlət başçıları bəyanatla çıxış etdilər. Deməli, 2013-cü ildən bir araya gəlməyən və birlikdə bəyanat verməyən bu üç dövlətin başçısı birdən-birə qərara gəldi ki, bəyanatla çıxış etsinlər və tələb etsinlər ki, Azərbaycan əks-hücumları dayandırmalıdır. Beləliklə, danışıqlar başlamalıdır. Bircə Ərdoğan buna üsyan etdi. Cənab Ərdoğan tələb etdi ki, tələb yanlışdır. Azərbaycanın mövqeyi düzgündür və Azərbaycanın mövqeyini müdafiə etməlisiniz. NATO-nun Baş katibi ilə olan mətbuat konfransında da cənab Ərdoğan dedi ki, siz ədalətin yanında olmalısınız.

Bütün bunları xalqımız bilsin deyə deyirəm ki, Azərbaycan yalnız yeddi rayonu azad etmək istəyirdi. Hələ Qarabağdan söhbət getmirdi. Fransa deyir ki, Azərbaycan Ordusunun Qarabağa girməsinə izin verməyəcəyik. Bunu Fransa deyəndə hələ biz Qarabağa girmək söhbəti etmirdik. Cənab Prezident də müsahibələrində deyirdi ki, biz yalnız yeddi rayonu almaq istəyirik. Yəni BMT-nin qətnamələrini icra etmək istəyirik. Bununla da bütün dünya Azərbaycanın əleyhinə oldu. Azərbaycan Prezidenti isə bütün bu təzyiqlərin qarşısında dura bildi. Bu, çox çətindir. Böyük dövlətlərə qarşı dayanmaq həqiqətən də çox çətindir. Cənab Prezident bunu bacardı.

***- Son zamanlar rus sülhməramlılarının fəaliyyətində müsbətə doğru inkişaf görünür. Sanki Azərbaycan qanunlar əsasında qarşısına nə tələb qoyursa, yerinə yetirir. Bu belədir?***

- Bu məqamda demək istəyirəm ki, qoy hamı bilsin: dünyada sülhməramlılardan razı qalan heç bir yerli xalq yoxdur. Hamısı narazıdır. Kim gəlsə də, biz narazı olacaqdıq, çünki arada ermənilər var, biz varıq. Yerli xalqla işlədikləri üçün təbiidir ki, onların da razılığını qazanmaq istəyirlər. Baxın, rus sülhməramlıları gələndən bizim tələblərin 90 faizinə əməl edib. Narazılıq etmişik, qəti mövqe qoymuşuq, əməl ediblər. Bu yaxında, hətta komandanı da dəyişdik. Heç işə başlamadan dəyişdirdik. Bu elə-belə bir şey deyil. Yenə də deyirəm: burada bir şeyi unutmamalıyıq ki, Rusiya sülhməramlılarına icazə vermək istəmirdik. 1993-cü ildən buna etiraz etmişik. Biz müdafiə naziri Məmmədrəfi Məmmədovu səhər-səhər oğurlayıb gətirdik, çünki sənədə qol çəkməliydi.

Qorxurdu, üzə çıxmırdı. Heydər Əliyev tələb etdi ki, təcili təyyarəyə minib Bakıya gəlməlisən. İmkan vermədik sənədə qol çəksin. Ondan sonra generallar gəldi, tələb etdilər. Heydər Əliyev güzəştə getmədi. Budapeşt sammitində xüsusi bəyanat qəbul etdirdik ki, Azərbaycana rus sülhməramlıları gələ bilməz. Bu qüvvələr beynəlmiləl olmalıdır. Sonradan tələb etdik ki, ümumiyyətlə, bu qüvvələr qonşulardan olmamalıdır. Otuz ilə yaxın mübarizə apardıq ki, ruslar bura gəlməsin. 44 günlük müharibənin gedişində bu məsələ qaldırıldı. Azərbaycan üç dəfə buna etiraz etdi. Sonda niyə razılıq verdik? Biz seçim qarşısındaydıq: ya NATO sülhməramlıları, ya da rus sülhməramlıları gəlməli idi. NATO sülhməramlilari son zamanlarda Kosovada olublar. Kosovanı müstəqil etdilər. Bosniyada olublar. Bosniyanı ağlar günə qoyublar. Həmçinin bunlar hamısı müharibə dövründə ermənipərəst olduğu üçün biz rus sülhməramlılarını seçdik.

***- Sizcə, Türkiyənin Qarabağ problemində iştirakına Amerika necə münasibət bəsləyir? Qərbin bu prosesdə iştirakı Rusiya və İrana hansı əngəllər törədə bilər?***

- Türkiyənin bu prosesdə iştirakını Amerika və Qərb heç cür qəbul etmir. Açıq şəkildə deyirlər ki, Türkiyə kənarda dayanmalıdır. Türkiyə müdaxilə etməməlidir. Türkiyənin bu prosesdə iştirakı və nüfuzunun artması bizi narahat edir, deyə açıqca bildirirlər. Kim dedi bunu? Türkiyənin NATO-dakı müttəfiqləri dedi. Qəbul etmək lazımdır ki, bunlarla müqayisədə Rusiya məsələyə normal yanaşdı. Beləliklə, Türkiyə bu məsələdə aktiv şəkildə iştirak etdi. Türkiyənin aktiv iştirakını İran, təbii ki, qəbul etmir. İran Türkiyənin bu regiona nüfuz etməsindən narazıdır. Rusiya isə hələ ki, hesablaşır. Mən deməzdim, Rusiya İran qədər narazıdır. Bəzi məqamlarda mane olurlar. Amma hələ ki, Rusiya mövcud reallıqla barışır.

***- Ərdoğan və Putin görüşü Rusiyanın Cənubi Qafqazdakı siyasətinə təsir edə bilərmi və yaxud Qarabağda hər hansı dəyişikllik görünəcəkmi?***

- Burada hər hansı dəyişikliyin olması üçün ilk növbədə, İdlibdə razılıq olmalıdır. İdlibdə vəziyyət ciddidir. Məlum olduğu kimi, Bəşər Əsəd gəlmişdi Moskvaya, Putinlə ayın 13-də görüşmüşdü. Tələb də bu oldu ki, Suriyanın 90 faizinə Bəşər Əsəd hökuməti nəzarət edir. 10 faiz ərazi qalıb ki, ona Türkiyə nəzarət edir. İlk növbədə də İdlibdən o silahlıların çıxarılmasını istəyirlər. Orada Suriya ordusu da var, Türkiyənin nəzarətindədir. Orada terrorçular da var. Rusiya da qəti şəkildə əməliyyatlara başlamaq istəyir. Türkiyə ora 4000 əsgər göndərdi, bildirdi ki, güzəşt etməyəcəyəm. Vəziyyətin bu dərəcədə gərginləşməsi bizə qətiyyən sərf etmir. İdlib məsələsində razılığın olması vacibdir. Elə görüşün əsas məqsədi də budur. Burada razılıq olarsa, inanıram ki, Qarabağda da hər hansı dəyişiklik olar.

✍ ***Azad***



**■ Oktyabrın 4-dən başlayaraq 2021-ci il üzrə Nobel mükafatı qaliblərinin adları açıqlanacaq. Nobel Komitəsinin rəsmi saytı xəbər verir ki, ilk olaraq fiziologiya və tibb üzrə qalib elan olunacaq.**

Oktyabrın 5-də fizika, 6-da isə kimya üzrə Nobel mükafatı laureatlarının adları açıqlanacaq. Ədəbiyyat üzrə Nobel mükafatının sahibi isə oktyabrın 7-də bəlli olacaq. Oktyabrın 8-də sülh və nəhayət oktyabrın 11-də iqtisadiyyat üzrə Nobel mükafatı qaliblərinin adları elan olunacaq. Qeyd edək ki, bu il davam edən koronavirus pandemiyası səbəbindən Nobel mükafatları dekabrın 10-da, Stokholmda keçirilən rəsmi mərasimdə deyil, laureatların yaşadıqları ölkələrdə veriləcək.



**■ Pakistan Azərbaycan ərazisindən istifadə edərək Avropaya yükdaşımalar həyata keçirmək niyyətindədir.**

Bunu Pakistanın Azərbaycandakı səfiri Bilal Hayee ABADA-da keçirilən görüşdə deyib. O, Pakistanın "National Logistics Cell" logistika şirkətinin Azərbaycan və Türkiyəyə avtomobil nəqliyyatı ilə yükdaşımalara başladığını deyib. Səfir bildirib ki, ölkəsinin milli logistika şirkəti Beynəlxalq Nəqliyyat Konvensiyası (TIR) çərçivəsində Beynəlxalq Nəqliyyat Birliyinin Pakistan Milli Səlahiyyətli Komitəsi tərəfindən regional nəqliyyat əməliyyatları üçün icazəsi var. B. Hayee eyni zamanda Azərbaycan ərazisindən keçərək bu xidmətlərinin icra edilməsi üçün münasib şərtlərin olduğu qeyd edilib.



**■ ABŞ 2022-ci ildən 2030-cu ilə qədər hasilat zirvəsinə çatana qədər neft istehsalını aktiv şəkildə bərpa etməyə başlayacaq.**

Bu barədə OPEC-in "World Oil Outlook" (WOO) illik hesabatında deyilir. Hesabata əsasən, ABŞ ortalama gündəlik neft hasilatının 2020-ci ildə qeydə alınmış 11,5 mln. bareldən 2026-cı ildə 14,8 mln. barelədək artıracaq. Proqnozlaşdırılır ki, ölkə neft hasilatının ən yüksək zirvəsinə (gündəlik 15,2 mln. barel) 2020-ci illərin axırlarında çatacaq. Ehtimal edilir ki, 2020-ci illərin sonlarına ABŞ-da maye karbohidrogenlərin ümumi ortalama gündəlik istehsalı 20,5 mln. barelə çatacaq, 2045-ci il üçün isə bu göstərici azalaraq 16,9 mln. barel səviyyəsində olacaq.



**■ "İndiki məqamda sərnişinlərdən COVID pasportunu yoxlamaq qeyri mümkün olar". Bunu "Bakı Metropoliteni" QSC-nin hərəkət xidmətinin rəisi Elxan Məmmədov deyib.**

Onun sözlərinə görə, müxtəlif qurumlarda, həmçinin ali təhsil müəssisələrində bu sənədin yoxlanılması səbəbindən metropolitendə COVID pasportunun yoxlanılmasına ehtiyac qalmır: "Bildiyiniz kimi, bu gündən etibarən həm ali təhsil müəssisələrində, həm də orta məktəblərdə tələbələr və şagirdlər fəaliyyətə başlayıblar. Bununla bağlı sərnişin axınında bu gün nisbətən artım müşahidə olunur. Sərnişinlərdən xahiş olunur ki, stansiyalara daxil olarkən tibbi maskalardan istifadə etsinlər, platforma boyunca səpələnməyə riayət etsinlər, digər sərnişinlərə narahatçılıq yaranmasın deyə, qatarların qapılarını saxlamasınlar".



**■ Rusiyanın xarici işlər naziri Sergey Lavrov və müdafiə naziri, ordu generalı Sergey Şoyqu deputat mandatından imtina ediblər.**

Bu barədə Rusiya Mərkəzi Seçki Komissiyasının (MSK) qərar layihəsində qeyd olunub. Bildirilib ki, sentyabrın 19-da VIII çağırış Rusiya Dövlət Dumasına keçirilən seçkilərdə hakim "Vahid Rusiya" partiyasının siyahısında ilk beşlikdə yer alan S. Lavrov və S. Şoyqu deputat mandatını qəbul etməyiblər. "Vahid Rusiya" partiyasının siyahısına liderlik edən Kommunarkadakı xəstəxananın baş həkimi Denis Protsenko və "İstedad və uğur" fondunun rəhbəri Yelena Şmelova da deputat mandatından imtina ediblər. İlk beşlikdə olanlardan yalnız uşaq ombudsmanı Anna Kuznetsova Dövlət Dumasına gedib.



**■ Azərbaycan Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. Hafta.az-ın Tarif Şurasına istinadən verdiyi məlumata görə, Tarif Şurasının iclasında yeni dövlət qeydiyyatına alınan 200-ə yaxın dərman vasitəsinin qiymətləri də təsdiq edilib.**

Qeyd edək ki, ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, qablaşdırma miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla indiyədək topdan və pərakəndə satış qiymətləri və qüvvəyə minmə tarixi təsdiq edilən 12 864 dərman vasitəsinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (<www.tariff.gov.az>) "Dərman vasitələri" bölməsində (<http://tariff.gov.az/documents/DVA.pdf>) yerləşdirilib.

# Döymə etdirənlər daha çox gənclərdir

## Cəmiyyət

**Döymə insanların kəşf etmiş olduğu ən qədim ünsiyyət vasitələrindən biridir. Bəzilərinə görə, təhlükəli bir dəstənin, bəzilərinə görə üsyanın, kimisinə görə isə sevginin əlamətidir. Döymə üslublarına baxdıqda görürük ki bu, ilk vaxtlar bir növ insan damğası kimi də istifadə olunub. İlk döymənin Peruda (Cənubi Amerika) yaşayan bir qəbilə tərəfindən istifadə edildiyi təxmin edilir. Hafta.az-ın əməkdaşı döymələrlə bağlı araşdırma apardı.**





Nəzərinizə çatdıraq ki, hazırda ölkəmizdə daha çox gənc nəsil döymələrə olduqca həvəslidir. Ancaq yaşlı nəsil nənə və babaların da əl-qolunda müxtəlif naxışların olduğunu görürük. Bundan başqa, tatuların qiyməti ölçü və formasına görə dəyişir. Döymə üçün ilkin qiymət isə 30 manatdan başlayır.

■ **Mövzu ilə bağlı müsahibimiz 10 ilə yaxındır ki, döymə peşəsi ilə məşğul olan V. Zeynalovdur. O bildirir ki, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirdikdən sonra, təxminən, 10 ilə yaxındır tatu işindədir. Hazırda çoxlu sayda məşhur müştəriləri də var:**

"Bu günə qədər uğursuz işim olmayıb. Bəzi hallarda müştəriləri tatudan çəkindirməyə çağırmışam. Həmin işi görməkdən imtina etmişəm. Bilirəm ki, 1 il sonra həmin insan o döyməyə görə peşmançılıq hissi keçirəcək". Həmçinin müsahibimiz müvəqqəti tatular olmadığını, dəri altına vurulan heç bir mürəkkəbin silinmədiyini vurğuladı:

"Müvəqqəti yapışqanlar olur. Dəri altına vurulan heç bir mürəkkəb silinmir. Silinsə belə bu, lazer şüası ilə həyata keçirilir". Mütəxəssis deyir ki, tatu üçün müraciət edənlər daha çox 25-30 yaş arası gənclərdir. Bundan başqa hazırda daha çox tələb olunan simvollar naxışlar və adlardır. "Ancaq bəzən 45-50 yaşlı insanlar da döymə üçün müraciət edirlər. İndi elə bir zamandır ki, ata öz qızını, yaxud oğlunu gətirir. İndi daha çox bəylər xanım adları, xanımlar da bəy adlarını döymə etdirirlər. Vətən müharibəsindən sonra, müharibə iştirakçıları döyüşdə olduqları və yaxud yaralandıqları tarixi bədənlərinə həkk etdirirlər". Ustanın dediklərindən belə qənaətə gəldik ki, tatu etdirənlər daha çox gənc nəslin nümayəndələridir. Bəs görəsən, bu ağrılı prosesə gənclər niyə xoşa-xoşluqla razı olur? Onları tatu etdirməyə nə vadar edir?

> *Vətən müharibəsindən sonra, müharibə iştirakçıları döyüşdə olduqları və yaxud yaralandıqları tarixi bədənlərinə həkk etdirirlər*

> *Döymə etdirən yeniyetmələr arasında aparılan sorğudan məlum olub ki, onların 25 faizi bunu niyə etdirdiyinin səbəbini bilmir*

■ **Bu mövzuda yaranmış suallarımızı psixoloq Gülnar Orucova cavablandırdı. O söylədi ki, tatu qədim Misir dövründən bu yana öz aktuallığını qoruyub saxlayır. Sadəcə olaraq indi tatu etdirən təbəqələr dəyişib:**

"Əvvəllər xanımlar döymə etdirməzdi. İndi daha çox yeniyetmələr tatuya maraqlıdır. Döymə etdirən yeniyetmələr arasında aparılan sorğudan məlum olub ki, onların 25 faizi bunu niyə etdirdiyinin səbəbini bilmir. Bəzən insanlar fərqli və ya dəbli görünmək, yaşıdlarından seçilmək üçün tatu etdirə bilirlər. Döymə keçmişdə olan xatirəni əbədiləşdirmək üçün də istifadə edilir. Ümumiyyətlə isə tatu orqanizmə zərərlidir. Din də bizə tatu etdirməyi məsləhət görmür. Ovuciçinə və ayaqaltına edilən tatular insanın sinir sisteminə birbaşa zərər vura bilər. Tatu olan zaman orqanizmdə kimyəvi reaksiyalar gedir. Bu xəstəliklərin keçməsi ehtimalını da artırır".

Psixoloqun sözlərinə görə, edilən bütün döymələrin altında müxtəlif psixoloji səbəblər var: "Əvvəllər narkotik maddə və spirtli içki aludəçiləri, həmçinin məhbuslar tatu etdirərdi. İndi isə 16-18 yaş arası yeniyetmələr, idmançılar və dəblə ayaqlaşmaq istəyən qlamur xanımlar. Xanımların görünən nahiyəyə döymə etdirməsi diqqət çəkmək istəyindən irəli gəlir. İnsan bəzən duyğuların təsirinə düşür və döymə etdirməyə başlayır. Məsləhət görürəm ki, insan tatu etdirməzdən öncə mütləq şəkildə psixoloqa müraciət etməlidir. Qərar verməzdən öncə "Nə üçün?", "Hansı məqsədlə?" kimi sualların cavabını axtarın".

✍ *Banu*

# Universitetlərdə ilk gün

## Sorğu

**Uzun müddət davam edən pandemiya şəraiti və distant təhsilin ardından bərpa edilən ənənəvi təhsil sistemi özü ilə bir sıra problemin meydana gəlməsinə səbəb olub. Belə ki, son günlər sosial şəbəkələrdə COVİD-19 virusu ilə bağlı universitetlərin dərs planının hələ tam hazır olmadığı haqqında xəbərlər yayılır.**

Növbəli şəkildə təhsil alacaq kursların dərs qrafikləri haqqında məlumat tələbələrə hələ də verilməyib. Hətta jurnallarda siyahılar tək və cüt nömrələrdə adlar qruplaşdırılaraq 2 həftə növbə ilə ənənəvi təhsilə qayıdılacağı vurğulanır. Belə bir durumda artıq Bakıda olan tələbələr iki həftə boş qalacaqları üçün narazılıqlarını bildirirlər. Hafta.az-ın əməkdaşı məsələ ilə bağlı universitetlərin mətbuat xidmətləri ilə əlaqə saxladı.

■ **Mövzu barədə danışarkən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) mətbuat xidmətinin rəhbəri Bəhruz Nəzərov bildirdi ki, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində sentyabr ayının 29-dan etibarən təhsilin ənənəvi formada tədrisinə start verilib. Tələbələrin sıxlığının qarşısını almaq məqsədilə isə bir sıra tədbirlər görülüb:**

"Karantin rejimi şəraitində universitetlərin girişində sıxlıq yaranmasın deyə, giriş-çıxış sahələndirilib. Hazırda təhsil ocağının 5 giriş-çıxışı fəaliyyət göstərir. Eyni zamanda, girişlərdə dezinfeksiyaedici qövslər içəri daxil olanları hərtərəfli dezinfeksiya edir. Həmçinin 6-8 metr məsafədən temperaturu ölçə bilən cihazlar qurulub". Dərs qrafiklərinin verilməməsi məsələsinə gəldikdə isə Bəhruz bəy söylədi ki, ADNSU-da sentyabr ayının 15-dən başlayaraq dərs qrafikləri ilə bağlı məlumatlar tələbələrə verilib: "Bildiyiniz kimi, Nazirlər Kabineti yanında Operativ Qərargahın qaydalarına görə, universitetlərdə tədris əyani formada başlayıb. Bu zaman auditoriya tutumunun 70 faizindən artığı tələbə ilə dolmamalıdır. Bizdə 15 nəfərlik qrup tam şəkildə dərsə davam edə bilir. Tələbə sayı çox olduqda isə qrupun 70 faizi həmin dərsə əyani digər hissə isə onlayn davam edir. Proses 14 gün davam edir. 14 gün sonra onlayn dərs keçən tələbə ənənəvi tədrisə davam edir, qrupun başqa bir hissəsi isə onlayna keçir".



■ **Azərbaycan Dillər Universitetinin (ADU) mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı universitetdə dərs qrafikləri ilə bağlı heç bir problemin yaşanmadığını dilə gətirdi:** "Azərbaycan Dillər Universitetində tədris qrafiki ilə bağlı hər hansı problem yoxdur. Dərslər tədrisin təşkili ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinə uyğun formada bu gündən etibarən başlayıb. Hazırda 18 yaşdan yuxarı bütün tələbələr COVİD pasportu təqdim edərək ənənəvi dərslərə qoşula bilirlər.

Vaksin olunmayan tələbələrin isə universitetə buraxılmayacağı barədə onlara dəfələrlə xəbərdarlıq edilib. 1 və 3-cü kurslar 8:30-da, 2,4 kurlar isə 13:20-də dərsə başlayırlar. Universitetdə tədris əyani olaraq davam etdirilir və dərslərin onlayn olaraq davam etdirilməsi nəzərdə tutulmayıb".

■ **Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin(ADMİU) mətbuat xidmətinin rəhbəri Şahanə Müşfiq isə söylədi ki, universitetdə dərslərin yüksək əksəriyyəti ənənəvi formada tədris edilsə də, onlayn davam edən formaları da var:**

"ADMİU-da dərslər bu gündən etibarən Təhsil Nazirliyi və Operativ Qərargahın qaydalarına uyğun olaraq başlayıb. Bakalavriat pilləsində təhsil 2 növbəlidir. Magistrlər isə 3-cü növbədə dərs keçəcəklər. Bildiyiniz kimi, bizdə praktika tələb edən ixtisaslar daha çox olduğundan dərslərimizin böyük hissəsi ənənəvi şəkildə, tələbə sayı çox olan qruplarda bölünmələr aparılaraq tədris olunacaq. Nəzəri dərslərin də tədrisi yenə də qaydalara uyğun olaraq tənzimlənir. Nəzəri dərslərdə mühazirələr onlayn, seminarlar isə ənənəvi şəkildə keçiriləcək".

■ **Tibb Universitetinin mətbuat xidmətinin rəhbəri Günel Aslanovanın sözlərindən isə belə aydın oldu ki, Tibb Universitetində də vəziyyət elə digər təhsil ocaqları ilə eynidir.**

Burada da ənənəvi dərslər bu gündən başlayıb: "Birinci kursların cədvəli hələ tam hazır deyil. Hələ qeydiyyat tam bitməyib və qruplar hazır deyil. Digər kursların isə cədvəli tam hazırdır və bu gündən verilib. Onlar üçün tədris əyanidir.

Onlayn dərsimiz yoxdur. Dövlətdə yeni qayda çıxmasa, dərslər bu şəkildə də davam edəcək. Tibb Universitetində birnövbəli sistemdir. Buna görə bütün kurslar eyni növbədə 8:30-dan 4-ə qədər dərsdə olurlar".

■ **Dünən səhər saatlarından universitetlərin giriş qapılarında sıxlıq müşahidə edilib. Bakı Dövlət Universitetinin qarşısına minlərlə insan toplanıb. Bunu əks etdirən foto və video görüntülər sosial şəbəkələrdə yayılıb.** Sıxlığın səbəbi Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə ali və orta-ixtisas təhsili müəssisəsində təhsil alan yaşı 18-dən yuxarı olan tələbələrdən, o cümlədən girişdə işçilərindən COVID-19 pasportunun tələb edilməsidir. BDU-da üstəlik turniket qoyulub, bu da müəyyən qədər sıxlıq yaradır.

BDU-nun mətbuat xidmətinin müdiri Günel Orucəliyeva hafta.az-a bildirib ki, universitetdə 23 minə yaxın tələbə təhsil alır. Birinci kursların ilk dərs gününə valideynləri və yaxınları ilə gəlmələri də bir tərəfdən sıxlığın yaranmasına səbəb olub: "Hər bir tələbənin COVİD-19 pasportu yoxlanılır, universitetin mühafizə xidməti bu işə cəlb olunub. Onlar operativ şəkildə işləyirlər. Amma mühafizəçilərimizin universitet ərazisindən kənara nəzarət etməyi mümkün deyil. Sosial məsafənin gözlənilməsi üçün dəfələrlə müraciətlər edilir. Valideynlər, tələbə yaxınları arasında hələ də universitetin qarşısında gözləyənlər var".

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov isə bildirib ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın konkret tələbləri var. Tələbələrin COVİD - 19 pasportu yoxlanılır, o cümlədən girişdə hərarətləri ölçülür. Universitetlərə sıxlığın baş verməməsi üçün tapşırıqlar verilib. Bildirilib ki, sosial məsafə qaydalarına riayət edilməlidir.

✍ *Banu*

# Ruhumuzun aşısı "nəsihətlər"

## Ədəbiyyat

*(Abbasqulu ağa Bakıxanov Qüdsinin "Nəsihətlər"i haqqında)*

***Salam olsun, çox dəyərli oxucum! Bu görüşə görə Böyük Allaha minnətdarlığım sonsuzdur! Sizlərlə bu dəfə vacib bir məsələ barədə söhbət edəcəyik, inşAllah. Haqqında söhbət açacağım məsələ son illər aktual olsa da, pandemiya səbəbindən təhsilin məlum məhdudiyyətli formada aparılması, ilkin dövrlərdə qəti əvəqapanma tələbləri nəticəsində telefon, planşet, kompüter və s. internetə (olduqca müxtəlif saytlara) çıxışı olan vasitələrə aludəçiliyi olan uşaq, yeniyetmə və gəncləri limitsiz məlumatlar bazası olan bu sirli dünyaya daha da bağladı. Xoş o uşaq, yeniyetmə və gənclərin halına ki, bu fürsətdən müsbət tərəfə faydalana bilirlər. Ancaq həmişə belə olmur. Elə uşaq, yeniyetmə və gənclərimiz var ki, bu sirli dünyada doğru yol tapmaqda çətinlik çəkir və bəzən hətta milli maraqlarımıza zidd olan istiqamət götürürlər.***



Bu hal çox vaxt gənc dostlarımızın təcrübəsizliyindən, əsl dünyadan, real həyatdan xəbərsizliyindən qaynaqlanır. Xüsusilə son günlərdə hər çıxışda, hər görüşdə Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin "Gənclər milli ruhda tərbiyə almalıdır!", "Vətənpərvərlik hissləri ön planda olmalıdır!" kimi çağırışlarının fonunda ziyalılarımız bu gün silahı əldə qələm olan yazarlar əllərindən gələni əsirgəməməlidirlər. Bu, həqiqətən ciddi məsələdir. Vəziyyət o həddə çatıb ki, hətta rəzil düşmənin təəssübkeşliyini çəkən gənclərimiz peyda olub. "Qloballaşma", "kosmopolitizm" kimi bəzək-düzəkli ibarələrlə beyinləri yuyulmuş hələlik kiçik qruplar şəkilində yeniyetmə-gənclər dəstələri formalaşmaqdadır. Buna hansı tərəfdən baxırsan-bax, mənfi haldır. Belə gənclər virtual dünyada hərəsi bir



cəngavər olsalar da, real həyatda tam əks keyfiyyətləri sərgiləyirlər. Belə kiçik qrupların gələcəkdə böyük manqurtlar ordusuna çevrilməməsi üçün cənab Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin "Gənclər ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır!" çağırışına hər bir qələm adamı qoşulmalı, öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir. Bu yöndə faydalı olmaq üçün söhbətimizi dahi Azərbaycan mütəfəkkiri Abbasqul ağa Bakıxanov Qüdsinin "Nəsihətlər" kitabı üzərində quracağıq. Öncə onu qeyd edək ki, böyük bir dünya olan bukiçik həcmli kitabla mənim ilk tanışlığım ötən əsrin 80-ci illərinə təsadüf edir. 8-9 yaşım olanda kiril əlifbası ilə nəsihətlərlə tanış olmuşam. Sonra təxminən 15-16 yaşlı yeniyetmə olanda əski əlifba ilə olan material kimi istifadə etdikdə hər nəsihəti həm kiril, həm də əski əlifba ilə dəfələrlə oxumuşam (kitabın formatı elədir ki, nəsihətlər paralel olaraq həm kiril, həm əski əlifba ilə verilib). Son 1-2 ay ərzində isə Tuncayla (Tuncay Şəhrili) əski əlifba ilə olan material kimi istifadə etdiyimiz üçün yenə hər nəsihəti həm kiril, həm də əski əlifba ilə dəfələrlə oxumuşuq. Müəllifin öz sözlərinə keçməzdən əvvəl bir daha onu xatırlatmaq istəyirəm ki, məsələ olduqca aktual, material, yəni Abbasquluağa Bakıxanov Qüdsinin "Nəsihətlər" kitabı olduqca qiymətli vəsaitdir. Bu kitab Prezident cənab İlham Əliyevin "Gənclər ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır!" çağırışına tam cavab verir. Müəllifin öz qələmindən kitab haqqında qısa arayışa diqqət edək.

**QISA ARAYIŞ**

...Qüdsi təxəllüslü Abbasqulu ibn Mirzə Məhəmməd xan Bakuvi belə deyir: "Elmlərdən xəbərdar olduğum zaman mənə məlum oldu ki, uşaqlar bəzi kitabları öyrənmək istərkən elə dolaşıq ibarələrə rast gəlirlər ki, hətta müəllimlərin özləri onları dərk elə bilmirlər.

Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq və mənimsəmək çox çətindir. Buna görə də "Uşaqlıqda öyrənilən elm daşda qazılmış şəkil kimdir" zərbül-məsəlin məzmunundan qəflət olunur. Əxlaq gözəlliyini hər zamandan artıq uşaq yaşlarında onlara öyrətmək lazımdır. Gözəl əxlaq təkrar olunduğu zaman adətə çevrilib insan təbiətinə daxil olacaq fikri anlaşılan elm və ədəb qaydaları onlara vərdiş olar. Bələliklə, hicrətdən min iki yüz əlli iki il keçən bir zamanda nəsihətlər adı ilə aydın və sadə anlaşılan müxtəsər bir kitab yazdım... Ümid edirəm ki, bu əsər uşaqlara faydalı olub, onların tərbiyəsində getdikcə daha artıq təsir etsin.

Uşaqlara üz tutub belə nəsihət verirəm: ey mənim əzizim, sən insansan. Allah insanı dünyada hər şeydən yaxşı yaratmışdır. Bu isə işi yaxşı bacarmaq səbəbindəndir. İnsanlar arasında da hər kəs çox biliki və işbilən olsa həmişə hörmətli olar. Deməli, gərək iş bilmək və yaxşılıq etmək o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli və qabiliyyətli olmuşlar. Belə adamların sözləri bizə nəsihətdir:

1. Öz ata-ananı hamıdan artıq əziz tut və hər nə buyursalar, əməl elə, onları heç vaxt incitmə... Sonra böyük qardaşına, bacı, əmi və dayına da itaət elə!

2. Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyükdürsə, ona hörmət elə, ta ki, səndən kiçiklər də sənə hörmət etsinlər.

3. Dövlət başçılarına itaət eləməyi özünə vacib bil, əgər onlar olmasa, ölkədə nizam-intizam olmaz və adamlar bir-birinin malına, canına və namusuna qəsd edərlər.

4. Hər hansı ölkədə olsan o vilayətin qanununa zidd iş görmə ki, cəzaya düçar olmayasan.

5. Xalqın xeyrinə olmayan bir işi eləmə və ya bir söz demə ki , sənə ondan zərər yetişər.

6. Hər kəsə rast gələndə ona salam ver. Əgər o sənə bir söz söyləsə, ədəblə dinlə və cavab ver ki, hamı səni sevsin.

7. O adamlarla otur-dur ki, böyüklər onları yaxşı adam hesab edirlər, əclaf və hərzə danışan adamlardan kənar gəz ki, sən də onlar kimi olmayasan". Və bu ardıcıllıqla nəsihətlər davam edir. Cəmi 84 nəsihətdən ibarət olan bu kiçikhəcmli kitab müasir uşaq, yeniyetmə və gəncin həyat kodeksinə çevrilərsə, onu ancaq uğur gözləyər! Gələcək şəxsiyyət kimi həyatda deməkolar ki, heç bir çətinliyi olmaz!

Bu nəsihətlər dahi söz adamı Abbasqulu ağa Bakıxanov Qüdsinin "Nəsihətlər"inin həmişə müasir və aktual olduğunu göstərməklə yanaşı, əsrlərin dəyişməsinə, vasitələrin yenilənməsinə rəğmən tərbiyədə olan problemlərin olduğu kimi qalması diqqətçəkən məqamlardan biridir. Övladının gələcəyini firavan görmək istəyən, Vətənini, dövlətini sevən hər bir valideyn və gələcəkdə övlad sahibi olacaq hər bir gənc bu kitabla mütləq tanış olmalıdır. Bu qəti tələbin öz səbəbləri var. Səbəblər aşağıdakılardan ibarət ola bilər:

1. Birinci əsas səbəb Abbasqulu ağa Bakıxanov Qüdsi sıradan bir adam deyildi. O, əsl dünyagörmüş ziyalı, ağayana əslzadə idi.

2. O, bu nəsihətləri sadədən mürəkkəbə elə sıralayıb ki, ən müasir psixoloji və pedaqoji bütün tələblərə cavab verir.

3. Dahi mütəfəkkir bu nəsihətləri tərtib edərkən özünün sahib olduğu bütün dini və dünyəvi bilklərin maksimum realizə imkanlarını nəzərə alaraq, tam praktik tövsiyələr hazırlayıb.

4. Ən əsası yaşadığımız dövlətin başçısının, möhtərəm Prezident cənab İlham Əliyevin "Gənclər ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır!" çağırışına tam cavab verir.

Bu məqamda cəmi 84 nəsihətdən ibarət olan kitabdan "Dövlət başçılarına itaət eləməyi özünə vacib bil, əgər onlar olmasa, ölkədə nizam-intizam olmaz və adamlar bir-birinin malına, canına və namusuna qəsd edərlər"; "Hər ölkədə olsan o vilayətin qanununa zidd iş görmə ki, cəzaya düçar olmayasan" - nəsihətlərini xatırlatmaqla bu mövzuda olan birinci yazımı yekunlaşdırmaq istəyirəm. Dəyərli oxucum, bizim parlaq gələciyimiz, aydın sabahımız olan gənclər, bir məsələni unutmayaq ki, cənab Ali Baş Komandan, Prezident İlham Əliyevin mövzu ilə əlaqəli bütün görüş və çıxışlarında dəfələrlə vurğuladığı kimi, "Düşmənə nifrət hissi bizi gələbəyə apardı!". Bu qələbəni biz şəhidlərimizin (sizin yaşıdlarınızın) qanı, canı, yarımçıq qalmış həyatları hesabına əldə etmişik. Onlar bu dünyadan, öz arzularından ona görə vaz keçdilər ki, biz, siz daha firavan yaşayaq. Düşmən əsarətindən onların qurtardığı torpağı qoruyaq, inkişaf etdirək, çiçəkləndirək. Burada "Dədə Qorqud" filmindən məşhur fraza - Dədə Qorqudun "Torpağı qorumasan, əkib-becərməyə dəyməz, əkib-becərməyəcəksən - qorumağa dəyməz"- tövsiyəsi yada düşür. Bu torpağı qorumaq, əkib-becərmək, onu qanı-canı bahasını yağı düşməndən alıb bizə ərmağan edən şəhidlərimizin ruhuna, qazi və döyüşçülərimizə hörmət etmək, ehtiram bəsləmək bizim başımızın borcudur. Bu, belədir və nə qədər Azərbaycan var, belə də olacaq!

Çox dəyərli oxucum, sona qədər həmsəhbət olduğunuza görə minnətdarlığımı bildirir və yenidən görüşmək ümidi ilə sizlərdən ayrılıram. Hələlik.

✍ ***Zaur Ustac,***
*şair-publisist, "Yazarlar" jurnalının baş redaktoru*

# Xəngəl - soyuq havanın qidası

## Menyu

*Payızın gəlişi və yağışların yağması həm də "xəngəl mövsümü"nün gəlməsi deməkdir. Bu yemək Azərbaycanın ən qədim yeməklərindən biridir. İndi "xəngəl" deyərək adlandırdığımız yeməyin əsl adı "xəngəl"dir. Qədim türk ədəbiyyatında xəngəl yeməyi haqqında məlumatlara, ümumiyyətlə, bu yeməyin süfrəyə nə cür verilməsinə rast gəlmək mümkündür. Hafta.az-ın menyu rubrikasının bugünkü mövzusu da məhz əsl qış və soyuq havanın yeməyi olan xəngəllə bağlıdır.*



**■ Qida texnoloqu Ağa Salamov xəngəllə bağlı danışarkən təəssüf hissi ilə söylədi ki, bu gün bəzi mütəxəssislər xəngəl və xaşı pisləyirlər. Deyirlər ki, "Bu yeməklər ölümə aparır, yaxud da orqanizmə mənfi təsir göstərir". Əslində isə belə deyil:**

"Nəzərinizə çatdırım ki, hər bir təamın düzgün hazırlanma texnikası var. Tam rafinə olunmuş ağ buğda unundan bişirilən xəngəl heç də ziyanlı deyil, əskinə, faydaları var. Düzdür, çox yeyilərsə qara ciyərdə piylənməyə, şəkər xəstəsi olanlarda ürək qan-damar sistemində problem olanlarda narahatlığa səbəb olar. Sağlam insan da xəngəl yeyərək orqanizminə ziyan vura bilər. Bu da yediyi yeməyin miqdarından asılıdır. Xəngəl elə eyni xəngəldir. Onu az yesəz heç bir ziyanı olmaz".

Mütəxəssis xəngəl yeməyinin doğru hazırlanma texnikası haqqında da oxucularımızı bilgiləndirdi:



**Ağa Salamov,**
qida texnoloqu

"Texnoloji baxımdan sağlam hazırlanmış xəngəldə mütləq şəkildə ağ buğda unundan istifadə edilməlidir. Bütün vitamin və mineralı içində qalan buğda unundan hazırlanmış yemək insana ziyan verə bilməz. Bir şərtlə ki, qida rasionu aşılmasın. Fikrimcə, hər insan 200-250 qram xəngəl yesə, bu normal haldır".

> *"Tam rafinə olunmuş ağ buğda unundan bişirilən xəngəl heç dəziyanlı deyil, əskinə, faydaları var*

Ekspert bölgələrimizə görə bu yeməyin fərqli reseptlərlə hazırlandığını da vurğuladı. Həmçinin o, "Nəyə görə yayda xəngəl yeyilməz?" sualına da aydınlıq gətirdi:

"Xəngəlin "Ətli xəngəl", "Qiyməli xəngəl", "Qabaq xəngəli", "Süzmə xəngəli", "Çolpalı xəngəl" kimi növləri var və bu çeşidlər regionlara görə dəyişir. Müxtəlif göyərtilərdən də hazırlanan xəngəl növləri var. Bu yemək isti aylarda insan orqanizminə mənfi təsir bağışlaya bilər. Ona görə də iqlimi nəzərə alaraq xəngəl və bu kimi yeməkləri istehlak etmək lazımdır".

Sonda isə mütəxəssis qida texnoloqu sadə xəngəlin hazırlanma qaydasından danışdı.

"Sadə xəngəl hazırlamaq üçün lazım olan inqridientlər:

**Un-250 qr**
**Yumurta-1 ədəd**
**Su-1 st**
**Duz-3 qr**
**Qiymə üçün:**
**Quzu əti-400 qr**
**Soğan-100 qr**
**Kərə yağı-60 qr**
**Quzu bulyonu, duz, istiot, sarıkök**

*Hazırlanma qaydası:*

Un, yumurta və duzdan bərk xəmir yoğrulur. Mayalanması üçün təxminən 20 dəqiqə gözləyirik. Ardınca hazır xəmiri 4 yerə bölüb, yayırıq. 0.5 santimetr yayıb romb şəklində kəsirik. Bundan sonra quruması üçün gözləyirik. Daha sonra içinə duz əlavə edilmiş su qaynadırıq. Xəngəlləri qaynar duzlu suda bişirib süzürük. Üzərinə əlavə ediləcək qiymə üçün əvvəlcə soğan kərə yağında qovrulur. Daha sonra quzu ətini əlavə edib birgə qovururuq. Azca bulyon da qatılaraq təkrar bişməyə qoyulur. Tam qızarmamış ət yemək üçün hazırdır. Xəngəlin servisi iri qabda olunsa daha məsləhətlidir".

*✍ Banu*

# "Kiçik Ürəklərdə Böyük Xatirələr" yaddaşlarda həkk olunacaq

R




**Əsas məqsədi ikinci Qarabağ müharibəsində şəhid olan hərbçilərimizin övladları üçün uzunmüddətli psixoloji reabilitasiya tədbirlərinin keçirilməsi olan "Kiçik ürəklərdə böyük xatirələr" layihəsi "Azercell Telekom"-un dəstəyi və "GID CSR Consulting" şirkətinin peşəkar təlimçilərinin iştirakı ilə reallaşdı.**

Xatırladaq ki, 5-14 yaş arasında olan 300 şəhid övladı, eləcə də xanımlarının cəlb olunduğu layihə mart ayından etibarən bir neçə mərhələdən ibarət təlimlər və qrup çalışmalarını özündə birləşdirdi.

Məsələn, "Art terapiya" (təsviri sənət terapiyası) uşaqlara musiqi, rəsm, hərəkət-rəqs, ədəbiyyat kimi incəsənət sahələri vasitəsilə öz duyğu və hisslərini ifadə etmək imkanı yaratdı. "Arzular ağacı" adlı təlimin köməyilə isə böyük sarsıntı yaşayan uşaqların üzləşdikləri psixoloji problemləri adlamaqlarına, gələcəkdə yarana biləcək daha ağır çətinliklərin qarşısını almağa şərait yarandı. "Uğur hekayəsi" istiqamətindəki təlimlərdə isə tanınmış şəxslər, böyük çətinliklər bahasına uğur qazanmağı bacaran peşəkarlarla görüşlər keçirildi. Layihənin daha bir vacib məqsədi isə şəhid övladlarının qəhrəman ataları haqqında xatirələri bir kitab halında toplamaq oldu. Tezliklə həm çap, həm də elektron formatda işıq üzü görəcək həmin kitab həm şəhidlərin öz ailə üzvləri üçün bir xatirə toplusu, həm də cəmiyyətimiz üçün Vətənin igid oğulları barədə daha zəngin məlumat mənbəyi olaraq müxtəlif kitab mərkəzləri, eləcə də Bookmate mobil kitabxanasında yerləşdiriləcək.

"Kiçik ürəklərdə böyük xatirələr" layihəsi hər bir azərbaycanlının rahat gələcəyi naminə torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçən mərd və yenilməz hərbçilərimizə və onların ailələrinə duyulan hörmət və qayğının kiçik nümunəsidir.

Şəhid hərbçilərimizin xanımları və layihə təşkilatçılarının təəssüratlarını əks etdirən videonu sizinlə də bölüşmək istərdik:

<https://youtu.be/P4-X9ytuL9zQ>

# Azərbaycanda ilk elektron jest dili lüğəti hazırlandı

R

**Azərbaycanda eşitmə və nitq məhdudiyyətli insanlar üçün ilk elektron lüğət (www.jestdili.az <http://www.jestdili.az>) hazırlanaraq istifadəyə verildi. Lüğət Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) elan etdiyi "Sosial layihələr" müsabiqəsinin qaliblərindən olan "Doğma jest dili" layihəsi çərçivəsində "Nar"ın maliyyə dəstəyi ilə hazırlanıb. Elektron lüğətdə təxminən 3000-ə qədər söz və söz birləşməsi jestlərinin izahedici mətnləri, eyni zamanda 2100-dən artıq jestin şəkilləri və videoları yerləşdirilib.**

Qeyd edək ki, "Doğma jest dili" lüğətinin elektron variantı eşitmə və nitq məhdudiyyəti olanlar və onların yaxınları, həmçinin bu qrup insanlarla işləyən surdotərcüməçi, surdoloq, müəllim və loqopedlər üçün əvəzedilməz vasait olacaq. Onlayn lüğətin digər üstünlüklərindən biri insanlar üçün daha əlçatan olması və sözlərin asanlıqla axtarışını aparmağa imkan verməsidir. Bundan başqa, saytın mobil versiyası da hazırlanıb. "Karlara Dəstək" İB-nin sədri Kamran Abasovun sözlərinə görə, elektron lüğət jest dilini öyrənmək arzusunda olanların istəyi nəzərə alınaraq hazırlanıb: "Azərbaycanda jest dili lüğətinin veb versiyası heç vaxt hazırlanmayıb. Veb-səhifə eşitmə və nitq qabiliyyəti məhdud olan insanların yaxınlarının jest dilini öyrənməsini asanlaşdıracaq, həmçinin gələcək tərcüməçilər və eşitmə və nitq məhdudiyyətli uşaqlarla işləyəcək şəxslər üçün pulsuz öyrənmə imkanı verəcək. Eşitmə məhdudiyyəti olan insanların adından "Nar" və RİİB-ə göstərdikləri bu dəstəyə görə təşəkkür edirik".

"Nar"ın İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundov bildirib ki, artıq 10 ilə yaxındır ki, mobil operator eşitmə və nitq məhdudiyyəti olan insanların cəmiyətə inteqrasiya olunmasına dəstək olmaq məqsədilə müxtəlif layihələr icra edib: "İlk elektron jest dili lüğətinin hazırlanması ilə eşitmə və nitq məhdudiyyəti olan insanların əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətinin artırılmasına və ətrafdakı in-



sanlarla ünsiyyətinin asanlaşdırılmasına dəstək olacağımıza inanırıq. Mobil operator olaraq, həm abunəçilərimizə üstün müştəri xidməti təqdim etməyi, həm də cəmiyyətimiz üçün əhəmiyyətli sosial layhələr icra etməyi özümüzün məsuliyyəti hesab edirik".

RİİB-in nümayəndəsi Zaira Qasımovanın sözlərinə görə, İctimai Birliyin fəaliyyətində əhalinin maarifləndirilməsi və məşğulluğun artırılması mühüm yer tutur: "Sosial cəhətdən həssas (çətin həyat şəraitində yaşayan və sosial müdafiəyə ehtiyacı olan) əhali qruplarının sosial problemlərinin həlli və sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası istiqamətində mütəmadi olaraq layihələr həyata keçirilir, yeni ideya və təşəbbüslər dəstəklənir. Layihə çərçivəsində onlayn lüğətin hazırlanması üçün Əmək və əhalinin sosial müdafiəsi nazirliyi, Təhsil nazirliyi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, AMEA-nın mütəxəssisləri, dosentlər və müəllim heyəti, 'Karlara Dəstək" İB-nin əməkdaşlarının iştirakı ilə işçi qrupu yaradıldı".

## ELAN

**Bakı Slavyan Universitetinin Beynəlxalq Münasibətlər və Jurnalistika fakültəsinin tələbəsi Osmanova İlahəyə məxsus tələbə bileti itirildiyi üçün etibarsız sayılır.**

## HƏFTƏ REYTİNQ

### Həftənin BƏYANATI



Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşməyin əleyhinə deyil. Bunu Prezident İlham Əliyev Fransnanın "France 24" kanalına verdiyi müsahibəsində deyib. Dövlət başçısı qeyd edib ki, görüş ATƏT-in Minsk qrupu tərəfindən təşkil olunarsa, Nikol Paşinyan ilə görüşə etiraz etmir. Bununla yanaşı, İlham Əliyev qeyd edib ki, Ermənistan tərəfindən ötən il müharibədə itirilən torpaqları geri qaytarmaqla bağlı istənilən niyyət Azərbaycanın sərt reaksiyası ilə qarşılaşacaq.

### Həftənin QORXAĞI



Ermənistanın Baş naziri Nikol Paşinyanın öz təhlükəsizliyi barədə narahatlığı günü-gündən artır. Bu barədə "Hraparak" qəzeti yazır. Nəşrin məlumatına görə, "xalqın içərisindən çıxan Nikol Paşinyan" bir zamanlar işə velosiped ilə gedirdi. İndi isə ölkənin Baş naziri öz xalqından elə qorxur ki, gündən-günə özünü xalqdan təcrid edir və mühafizəçilərinin sayını artırır.

### Həftənin MÜTTƏHİMİ



Ermənistanın Baş Prokurorluğu 44 günlük müharibə ilə bağlı qaldırılan 2000-dən çox cinayət işləri üzrə işləri davam etdirir. Bildirilir ki, Qarabağın cənubunda və Şuşa istiqamətində hadisələr ilə bağlı iş üzrə qondarma rejimin rəhbəri Araik Arutyunyan və onun müşaviri və sözügedən rejimin digər "rəsmiləri" də daxil olmaqla təqribən 150 nəfər məsələsinə baxılır. Bu günə qədər təqribən 20 baxış və müsadirə həyata keçirilib. Qeyd olunur ki, əldə edilmiş sübutlar əsasında 800-dən çox nəfər barəsində ittiham irəli sürülməsi haqda qərar qəbul edilib.

### Həftənin OLAYI



Fransa Prezidenti Emmanuel Makrona yumurta atan şəxs saxlanılıb. Bu barədə Fransa mətbuatı məlumat yayıb. Bildirilir, saxlanılan şəxs "dövlət rəsmisinə qarşı şiddət" maddəsi ilə ittiham olunur. Xatırladaq ki, Makronun Lina səfəri zamanı ona naməlum əşya atılıb. İlkin ehtimala görə, bu, yumurta olub. Yumurtanı atan gənc "Yaşasın inqilab" şüarını səsləndirib.

### Həftənin MƏĞLUBİYYƏTİ



"Real"ın baş məşqçisi Karlo Ançelotti Çempionlar Liqasında "Şerif"ə (Moldova) uduzduqları oyunla bağlı fikirlərini bildirib. İtalyan mütəxəssis, 1:2 hesabıyla bitən görüşü belə şərh edib: "Bu məğlubiyyətə izah vermək çətindir. Çox təzyiq göstərdik, amma yaxşı müdafiə olundular. Xırda detalları yaxşı etmədik. Məğlubiyyətə layiq deyildik, bəxtimiz gətirmədi. Eduardo Kamavinqanı cinah müdafiəçisi oynatdığım üçün uduzduğumuzu düşünmürəm. Yaxşı oynadığımız dəqiqələr oldu. Sadəcə qol çatışmadı".

### Həftənin YATIRIMI



Xalq artisti, "Crocus Group" şirkətinin birinci vitse-prezidenti Emin Ağalarov KAI adlı yeni restoran layihəsinə 1 milyon dollar (1,7 milyon AZN) yatıracaq. Bu barədə "Vedomosti" nəşri xəbər verir. Yapon mətbəxi restoranı biznesmenin Moskvada Novorojiskoye şosesində yerləşən "Estate Mall" adlı yeni ticarət mərkəzində bu ilin sonunadək açılacaq. E. Ağalarovun sözlərinə görə, obyektin investoru özüdür. İnvestisiyalar ərazinin restorana uyğun hazırlanması, avadanlıqlar, qab-qacaq və s. əşyaların alınması qiymətini əhatə edir.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Britaniya kral ailəsinin üzvləri Bond haqda filmin premyerasında...**

# Şuşada "Qarabağ atları" adlı sərgi təşkil edəcəm

**Dase Ştrausan,**
latviyalı rəssam

Bu atlar onlarla yaxşı rəftar edən və qayğılarına qalan hər bir insana asanlıqla bağlanırlar.

▸▸ Səh. 6

## STATİSTİKA



■ İnsanın qaraciyəri bir saatda 100 litrdən çox qan buraxır.

■ İnsan beynində bir saniyədə 100.000 kimyəvi reaksiya meydana gəlir.

■ Kişilərin saqqalları 7-15 min tükdən ibarətdir. Və ildə 14 santimetr sürətlə böyüyür.

■ Araşdırmalara görə, ağlayan adam 43 üz əzələsindən istifadə edir, gülən adam isə 17.



▸▸ Səh. 7

# Döymə etdirənlər daha çox gənclərdir